HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 50-51 (893) ■ 20 dekabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.


# Prezident İlham Əliyev: *«İdman Azərbaycanın inkişafının ümumi kontekstində mühüm yer tutur»*

**Dekabrın 18-də Milli Olimpiya Komitəsində 2017-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və birinci xanım, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Mehriban Əliyeva tədbirdə iştirak ediblər.**

Mərasimdə çıxış edən dövlətimizin başçısı bildirib ki, 2017-ci ildə Azərbaycan idmançıları xalqımızı böyük qələbələrlə sevindiriblər: «Hər il idmançılarımız müxtəlif beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər, medallar qazanırlar. Bu il də medalların sayı kifayət qədər çoxdur. Azərbaycan idmançıları bu il bütün beynəlxalq yarışlarda 851 medal qazanmışlar ki, onlardan 347-si qızıl medaldır. Keçən illə müqayisədə medalların sayı daha çoxdur. Bu onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanırlar. Bu il bir çox idman qələbələrimiz olubdur. Onların arasında bir neçə hadisəni bu gün qeyd etmək istərdim. Bizim şahmatçılarımız üçüncü dəfə Avropa çempionu olmuşlar. Bu, böyük qələbədir, böyük nəticədir. Bu nəticə onu göstərir ki, bizim idmançılarımız həm döyüş, həm komanda, həm intellektual idman növlərində ən yüksək pilləyə qalxırlar. Şahmat üzrə Avropa çempionatında birinci olmaq doğrudan da böyük nailiyyətdir, böyük qələbədir».






Prezident İlham Əliyev komanda idman növlərində də idmançılarımızın çox yaxşı nəticələr əldə etdiyini diqqətə çatdırıb: «Bakıda keçirilmiş voleybol üzrə qadınlar arasında Avropa çempionatında voleybolçu qızlarımız dördüncü yerə layiq görüldülər. Onlar hətta medal qazanmağa da çox yaxın idilər. Yarımfinal görüşündə qələbəyə çox yaxın idilər. Ancaq hesab edirəm ki, Avropada voleybol kimi çox məşhur idman növündə dördüncü olmaq da böyük nailiyyətdir. Əlbəttə ki, bizim futbolçularımız - hamımız üçün doğma olan «Qarabağ» komandası tarixdə ilk dəfə olaraq Çempionlar Liqasının final mərhələsində iştirak etmişdir. Bu, Azərbaycan futbolunun böyük qələbəsidir və komanda ölkəmizi, xalqımızı, Qarabağı bu oyunlarda ləyaqətlə təmsil etmişdir».

Dövlətimizin başçısı respublikamız üçün bu il ən böyük qələbənin Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarında əldə edildiyini xatırladıb: «Bu Oyunlar, sözün əsl mənasında, böyük idman, dostluq, qardaşlıq bayramı idi. Azərbaycan bütün müsəlman ölkələrinin aparıcı idmançılarını qəbul etdi, əminəm ki, onlar öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar. Burada keçirilən Oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Göstərdi ki, Azərbaycan dünya miqyasında böyük idman dövlətidir. 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə Azərbaycan komandası layiq görüldü. Bu Oyunlarda üç mindən çox idmançı, minlərlə mütəxəssis, qonaq iştirak edib və Azərbaycan həqiqətləri ilə tanış oldular. Mən sadəcə olaraq bir neçə önəmli idman hadisəsini diqqətinizə çatdırdım. Ancaq qələbələrin sayı çox olubdur. Qeyd etdiyim kimi, 851 medal qazanmışıq və sevindirici hal ondan ibarətdir ki, həm döyüş, həm komanda, həm də intellektual idman növlərində bizim idmançılarımız çempiondurlar, qalibdirlər».

Prezident İlham Əliyev qeyd edib ki, Bakıda keçirilmiş mötəbər beynəlxalq yarışlar bütün dünyanın diqqətini cəlb edir: «Bu il ikinci dəfə olaraq Bakıda «Formula-1» yarışı keçirilmişdir. Ümumi rəyə görə, - bu, artıq xarici mətbuatda da qeyd olunub, - 20 yarışın arasında bu yarışlar ilin ən yaxşı yarışı hesab olunub. Yəni, bu da bizim böyük nailiyyətimizdir, böyük uğurumuzdur. Bir çox «Formula-1» yarışlarından fərqli olaraq bizim yarışımız şəhər yarışıdır və bu, eyni zamanda, bütün dünyaya - yarım milyardlıq tamaşaçı auditoriyasına Bakı şəhərinin gözəlliyini nümayiş etdirir. Təsadüfi deyil ki, 2016-cı ildə ölkəmizə gələn turistlərin sayı 24 faiz və 2017-ci ilin 11 ayında isə daha 20 faiz artmışdır. Əlbəttə, bunun səbəbləri təkcə «Formula-1» yarışı deyil, Azərbaycanda gedən inkişaf, sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, müasir infrastruktur, şəhərimizin gözəlliyi, müasir otellər, viza rejiminin sadələşdirilməsidir. Eyni zamanda, hesab edirəm ki, «Formula-1» ölkəmizin təbliğatı üçün nadir bir yarışdır».

İdmanın Azərbaycanın inkişafının ümumi kontekstində mühüm yer tutduğunu vurğulayan dövlətimizin başçısı respublikamızın hər bir istiqamət üzrə son illər ərzində uğurlu inkişaf yolu keçdiyini diqqətə çatdırıb: «Güclü iqtisadi imkanlarımız, beynəlxalq mövqelərimizin gücləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın çox hörmətli ölkə kimi qəbul edilməsi, əlbəttə ki, bizim ümumi uğurlarımıza şərait yaradır. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılar cəmiyyətdə böyük hörmətə malikdirlər. Onu da qeyd etmək istəyirəm ki, idmançılarımızın mütləq əksəriyyəti, xüsusilə bizim tanınmış idmançılarımız məişətdə də gənclər üçün nümunədir. İdmançılarımızın qələbələri və dövlət tərəfindən onların mükafatlandırılması uşaq, yeniyetmə, gənc idmançılarda da ruh yüksəkliyi yaradır. Ona görə də bu gün idmana, sadəcə olaraq, bir sahə kimi baxmaq mümkün deyil. İdman hər bir ölkənin ictimai həyatında çox böyük rol oynayır. Təsadüfi deyil ki, ölkələr çalışırlar ki, beynəlxalq yarışlarda, dünya çempionatlarında, xüsusilə Olimpiya Oyunlarında daha yüksək yer tutsunlar. Çünki bu, hər bir dövlətə daha böyük şöhrət gətirir».

Sonra 2017-ci ildə yüksək nailiyyətlər qazanan idmançılar və idman mütəxəssisləri mükafatlandırılıb. Prezident İlham Əliyev bu il yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini də təqdim edib. Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar İncəsənət Xadimi Zərifə Salahova Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim edib.

# Azərbaycan Prezidenti Sumqayıt şəhərində olub

**Dekabrın 15-də Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfər edib. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Abidənin yerləşdiyi Heydər Əliyev parkında və şəhərdə görülən işlər barədə Prezident İlham Əliyevə ətraflı məlumat verilib.**

Səfər çərçivəsində dövlətimizin başçısı Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə tanış olub, burada fəaliyyət göstərən yeni müəssisələrin təməlqoyma və açılış mərasimlərində iştirak edib. Bildirilib ki, Sumqayıt Kimya Sənaye Parkının ümumi ərazisi 505,6 hektardır. Parkın rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumundan azad olunublar. Rezidentlərin qeydiyyatı «bir pəncərə» sistemi ilə həyata keçirilir. Artıq 15 müəssisəyə Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib.

Diqqətə çatdırılıb ki, 2013-cü ildən fəaliyyətə başlayan «Azertexnolayn» MMC Türkiyə, Almaniya və Çin texnologiyası əsasında polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edilir. Parkın rezidentləri arasında «Alco Lubricant Company» Məhdud Məsuliyyətli Cəmiyyəti də var. Bu gündən fəaliyyətə başlayan müəssisədə il ərzində avtomobil, hava və dəniz nəqliyyatında, kənd təsərrüfatı, sənaye və energetika sahələrində istifadə olunan 30 min ton müxtəlif növ yüksək keyfiyyətli sürtkü yağlarının istehsalı nəzərdə tutulub. Almaniya texnologiyası əsasında yaradılan müəssisədə 100 nəfər daimi iş yeri ilə təmin olunacaq. «Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyəti İtaliya texnologiyası əsasında yaradılacaq. Silisium və Kalsium İstehsalat Müəssisəsində ildə 5 min ton tikinti qatqıları istehsal olunacaq. «Azerbaijan Fibro Cement» Məhdud Məsuliyyətli Cəmiyyətində ildə 6 milyon kvadratmetr fibro-sement lövhələr istehsal ediləcək. «Tabaterra» Qapalı Səhmdar Cəmiyyətinin tütün fabrikində ildə 7 milyard ədəd siqaret



istehsalı nəzərdə tutulub.

Prezident İlham Əliyev parkın ərazisində «AzerFloat» QSC-nin şüşə istehsalı zavodunun, «Azərxalça» ASC-nin yunəyrici-boyaq fabrikinin təməlini qoyub, «Gilan Sənaye Qrupu»na daxil olan «Aqrokimya Azərbaycan» MMC-nin pestisidlər istehsalı zavodunun birinci mərhələsinin, həmçinin Sumqayıt Kimya Sənaye Parkının rezidenti - «STDC» MMC-nin layihəsi olan məlumatların emalı, qeydə alınması və ötürülməsi mərkəzinin - Data Mərkəzin açılışında iştirak edib.

Səfər çərçivəsində Prezident İlham Əliyev şəhər ictimaiyyətinin nümayəndələri ilə də görüşüb, daha sonra Bayraq Muzeyinin və Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasının, «Baku Steel Company» MMC-nin Sumqayıt boruyayma zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib, Dövlət Neft Şirkətinin «Azərikimya» İstehsalat Birliyinin «Kimyaçı» Mədəniyyət Sarayında və şəhərin Lüdviqşafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

# Birinci vitse-prezident Mehriban Əliyevaya yüksək mükafat verildi



Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilib.

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyevanı bu ordenlə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə, habelə Rusiya ilə Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi sahəsində çoxsaylı xidmətlərinə görə Moskvanın və bütün Rusiyanın patriarxı Kirill təltif edib.

Bu yüksək ordenlə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər.

Xatırladaq ki, 2013-cü ildə Mehriban Əliyevanın himayədarlığı ilə Həştərxanda Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılıb. Bu il Mehriban Əliyevanın şəxsi təşəbbüsü ilə abidənin ətrafındakı ərazidə abadlıq işləri görülüb.

# Dünya Bankı Azərbaycanda islahatlara dəstək verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Dünya Bankı Qrupuna daxil olan Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyinin (ÇİZA) icraçı vitse-prezidenti və baş icraçı direktoru xanım Keiko Hondanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Dünya Bankının Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara verdiyi davamlı dəstəyi yüksək qiymətləndirib və təşkilat tərəfindən ölkəmizə ayrılan maliyyə vəsaitlərinin önəmini qeyd edib. Bildirib ki, bu il Azərbaycanla Dünya Bankı Qrupu arasında əməkdaşlığın 25 illiyi qeyd olunur, ötən dövr ərzində Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyi tərəfindən ölkəmizdə xarici investorların həyata keçirdiyi bir sıra mühüm investisiya layihələrinə, eləcə də qlobal əhəmiyyətli «Cənub Qaz Dəhlizi» layihəsinə önəmli dəstək verilib. Prezident İlham Əliyev bildirib ki, bu il Azərbaycan iqtisadiyyatı artıq sabitləşmə dövrünə qədəm qoyub. İqtisadiyyatımızda neft amilini nəzərə almasaq, görərik ki, bu il qeyri-neft sektorunda 2,5 faiz, qeyri-neft sənaye sahəsində 3 faizdən çox, aqrar sektorda isə 4 faizdən çox inkişafa nail olunub. Neftin qiymətinin aşağı düşməsinin ümumi daxili məhsulun həcminə mənfi təsir göstərməsinə baxmayaraq, qeyri-neft sektoru ümumi daxili məhsulun 70 faizini təşkil edib. Dövlətimizin başçısı qeyd edib ki, gələcəkdə Cənub Qaz Dəhlizinin işə düşməsi, «Əsrin müqaviləsi»nin müddətinin uzadılması, əlavə investisiya qoyuluşu, qlobal nəqliyyat layihələrinin uğurla həyata keçirilməsi Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərinə nikbinliklə baxmaq üçün əsas verir.

Görüşdə Azərbaycan ilə Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## BU NÖMRƏMİZDƏ


«ŞƏFFAF VERGİ PARTNYORLUĞU» LAYİHƏSİ UĞURLA DAVAM ETDİRİLİR 2

VERGİ ÖDƏYİCİLƏRİNƏ XİDMƏT MƏRKƏZLƏRİ RAHATLIĞA VƏ OPERATİVLİYƏ TƏMİNAT VERİR 3

VERGİ GÜZƏŞTLƏRİ: İNVESTORLARA AÇILAN QAPI 4

KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI ƏSAS PRİORİTETLƏRDƏNDİR 5

Nazirlər Kabinetində

## Qəzet kağızı gömrük rüsumundan azad ediləcək

Nazirlər Kabinetinin təsdiq etdiyi «Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri»nə əsasən, ölkəyə idxal olunan qəzet kağızı gələn il yanvarın 1-dən idxal gömrük rüsumundan tam azad ediləcək.

Rulonlarda və ya istənilən ölçülü düzbucaqlı (kvadrat da daxil olmaqla) vərəqlərdə, yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton, deşilməmiş kartlar və deşilməmiş kağız lentlər, əllə tökülmüş kağız və karton üçün tətbiq edilən 15 faiz idxal gömrük rüsumu isə qüvvədə qalıb.

Hazırda qüvvədə olan «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri»nə əsasən rulonlarda və ya vərəq şəklində ölkəyə gətirilən qəzet kağızına 0,50 faiz gömrük rüsumu tətbiq edilir. Gələn il yanvarın 1-dən bu növ qəzet kağızına idxal gömrük rüsumu tətbiq olunmayacaq. Yarımsellülozdan və saman kütləsindən büzmə üçün kağız da 0,50 faizlik idxal gömrük rüsumundan azad olunub.

## Avtomobillərin idxal gömrük rüsumu dəyişəcək

Nazirlər Kabinetinin qərarına əsasən, Azərbaycana idxal olunan minik avtomobillərinə tətbiq edilən idxal gömrük rüsumu gələn il yanvarın 1-dən dəyişəcək. «Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri»ndə edilən dəyişikliyə əsasən, mühərrikinin silindrlərinin işlək hissəsinin həcmi 1500 kubsantimetrdən çox, lakin 1800 kubsantimetrdən çox olmayan, mühərrikinin silindrlərinin işçi həcmi 1800 kubsantimetrdən çox, lakin 3000 kubsantimetrdən çox olmayan və mühərrikinin silindrlərinin işçi həcmi 3000 kubsantimetrdən çox olan təzə və istismar olunmuş minik avtomobilləri üçün idxal gömrük rüsumu artırılıb. Bu kateqoriyalardan olan təzə minik avtomobilləri üçün idxal gömrük rüsumu mühərrikin həcminin hər 1 kubsantimetri üçün 0,70 dollar, istismar olunmuş belə avtomobillərin mühərrikinin həcminin hər 1 kubsantimetri üçün 1,2 dollar olacaq. Mühərrikinin silindrinin işlək hissəsinin həcmi 1000 kubsantimetrdən çox olmayan və mühərrikinin silindrinin işlək hissəsinin həcmi 1000 kubsantimetrdən çox, lakin 1500 kubsantimetrdən çox olmayan minik avtomobilləri üçün gömrük idxal rüsumu dəyişməyib. Bu kateqoriyalarda təzə minik avtomobilləri üçün idxal gömrük rüsumu mühərrikin həcmin hər 1 kubsantimetri üçün 0,40 dollar, istismar olunmuş belə avtomobillərin mühərrikinin həcminin hər 1 kubsantimetri üçün isə 0,70 dollardır.

Qeyd edək ki, hazırda qüvvədə olan «Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında» qərara əsasən, mühərrikinin silindrlərinin işlək hissəsinin həcmi 1500 kubsantimetrdən çox, lakin 1800 kubsantimetrdən çox olmayan təzə minik avtomobilləri üçün idxal gömrük rüsumu mühərrikin həcminin hər 1 kubsantimetri üçün 0,40 dollar, istismar olunmuş belə avtomobillərin mühərrikinin həcminin hər 1 kubsantimetri üçün 0,70 dollardır. Mühərrikinin silindrinin işlək hissəsinin həcmi 1800 kubsantimetrdən çox, lakin 3000 kubsantimetrdən çox olmayan və mühərrikinin silindrlərinin işçi həcmi 3000 kubsantimetrdən çox olan avtomobillər üçün də idxal gömrük rüsumu mühərrikin həcminin hər 1 kubsantimetri üçün 0,40 dollar, istismar olunmuş belə avtomobillərin mühərrikinin həcminin hər 1 kubsantimetri üçün 0,70 dollardır.

## Nağdsız ödəniş imkanları genişləndirilir

Mərkəzi Bank (MB) nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə banklarla birgə Banklararası Kart Mərkəzi üzərindən keçən əməliyyatlar üzrə interçeync xidmət haqqının sıfır dərəcəsində təyin olunması barədə razılıq əldə edib. Aparılan əməliyyatların xidmət haqlarının tətbiq edilməməsi ilə emal olunması məqsədilə Banklararası Kart Mərkəzi səviyyəsində yeni Merchant Category Code (MCC kod) təyin edilib. Bu qərar nağdsız aparılan əməliyyatlar üzrə hesablaşmalarda effektivliyin artırılması, xidmət haqlarının bazar tələblərinə uyğun çevik tənzimlənməsinin təşkili, nağdsız hesablaşmaların səmərəliliyinin yüksəldilməsi baxımından əhəmiyyətli hesab olunur.

MB-nin məlumatına görə, ölkədə nağdsız əməliyyatların həcminin genişləndirilməsi məqsədilə Maliyyə Bazarlarına Nəzarət Palatası və «ASAN xidmət» mərkəzləri ilə birgə tədbirlər keçirilməkdədir. «Hökumət ödəniş portalı» (HÖP) üzərindən təqdim olunan xidmətlərə görə nağdsız ödənişlərin aparılması üçün «ASAN xidmət» mərkəzlərində POS-terminallar quraşdırılaraq vətəndaşların istifadəsinə verilib və onların vasitəsilə kütləvi xidmətlərin və büdcə ödənişlərinin nağdsız formada ödənilməsi mümkündür.




Hazırda MB ölkədə rəqəmsal ödənişlərin genişləndirilməsi tədbirlərini davam etdirir. Strateji Yol Xəritəsində müəyyən edilmiş hədəflərə çatmaq üçün hazırlanmış müvafiq Dövlət Proqramının strateji məqsədi iqtisadiyyatda nağdsız ödənişlərlə aparılan tranzaksiyaların əhəmiyyətli dərəcədə genişlənməsi, bununla da nağd ödənişlərin miqyasının minimuma endirilməsi, eləcə də bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsi, nağd pul tədavülü ilə bağlı yaranan tranzaksiya xərclərinin azaldılmasıdır. Proqram çərçivəsində rəqəmsal iqtisadiyyata keçidlə bağlı infrastrukturun gücləndirilməsi, effektiv tənzimləmə metodlarının tətbiqi, ödəniş sistemlərinin texniki inkişafı, mobil operatorlara rəqəmsal ödəniş fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi, milli ödəniş sistemi və bank hesabları arasında inteqrasiyanın artırılması, avtomatlaşdırılmış kommunal xərc ödənişlərinin genişləndirilməsi nəzərdə tutulur.

Əsas prioritetlər sırasında sahibkarlıq subyektləri tərəfindən aparılan maliyyə əməliyyatlarının tamamilə nağdsızlaşdırılması, rəqəmsal ödənişlər üçün komisyon haqların ödənişində güzəştlərin müəyyənləşdirilməsi də yer alıb. Bu hədəflərə nail olmaq üçün internet və mobil bank sistemlərində elektron imzanın əhatə dairəsinin 2020-ci ildə 80-100% səviyyəsinə çatdırılması, POS-terminallar vasitəsilə həyata keçirilən əməliyyatların məbləğinin 400 milyon manatdan 2,7 milyard manatadək artırılması, nağdsız qaydada həyata keçirilən kart əməliyyatlarının xüsusi çəkisinin 2020-ci ilədək 30%-ə, 2025-ci ilədək 50%-ə, 2025-ci ildən sonra isə 80%-ə çatdırılması nəzərdə tutulub.

**ELBRUS**

## «Şəffaf vergi partnyorluğu» layihəsi uğurla davam etdirilir

Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamında vergi sahəsində həyata keçirilməsi planlaşdırılan tədbirlərin əsas istiqamətlərindən biri də vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidinin və keyfiyyətinin artırılmasıdır. Vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin daha şəffaf qurulması və yüksək səviyyəyə çatdırılması, nümunəvi vergi ödəyicilərinə münasibətdə vergi inzibatçılığının sadələşdirilməsi bu istiqamətin başlıca hədəflərindəndir.

Vergi ödəyicisi və vergi orqanı arasında qarşılıqlı etimad və əməkdaşlığa söykənən münasibətlərin formalaşması vergilərin məcburi yığımından könüllü yığımına keçidin əsas şərtlərindəndir. Könüllü əməletmə səviyyəsinin artırılması isə vergi ödəyicilərinə geniş spektrli xidmətlərin göstərilməsi, vergilərin hesablanması və ödənilməsi sisteminin sadələşdirilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında əlaqələrin daha da təkmilləşdirilməsindən asılıdır. Vergilər Nazirliyi könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirir. Hazırda nazirlik tərəfindən vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin sayı 64-ə çatdırılıb, vergi orqanlarına göndərilən bəyannamələrin 90%-dən çoxu elektron formada təqdim olunur. Vergi bəyannamələrinin könüllü təqdim edilməsi göstəriciləri,vergi növlərindən asılı olaraq, 80-90 faiz arasında dəyişir.

> Yanvar-noyabr aylarında partnyor ödəyicilərə telefon vasitəsilə 4131 məlumatlandırma xidməti göstərilmiş, 6889 maarifləndirici bildiriş təqdim edilmiş, 326 ünvanlı xidmət göstərilmişdir

Vergilər Nazirliyi tərəfindən könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri də vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq müstəvisində təşkil olunmasıdır. Ötən ilin sonundan «Şəffaf vergi partnyorluğu» layihəsinə başlanılması tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi və keyfiyyətcə yeni müstəviyə qaldırılması istiqamətində yeni bir yanaşma olmuşdur. Bu, ilk növbədə, intizamlı vergi ödəyiciləri ilə işin aparılmasını nəzərdə tutan bir sistemdir. Vergi öhdəliklərini vaxtında yerinə yetirən ödəyicilərə xüsusi münasibətin göstərilməsi beynəlxalq praktikada geniş yayılmışdır. Vergi öhdəliklərini yerinə yetirməyən, problemli ödəyicilərdən fərqli olaraq, intizamlı vergi ödəyicilərinə xidmətlər sürətli və fərdi qaydada həyata keçirilir.

Partnyor vergi ödəyicilərinin seçimi «Şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə işlərin təşkili Qaydaları»na uyğun aparılır. Partnyor ödəyici statusu almaq üçün vergi ödəyicisi:

- vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə təqdim etməli;
- vergiləri tam həcmdə və vaxtında ödəməli;
- fəaliyyət göstərdiyi iqtisadi fəaliyyət sahəsinə uyğun olaraq işlərin yerinə yetirilməsinə cəlb edilmiş şəxslərin sayını və onlar üzrə müəyyən olunan əmək haqlarını düzgün bəyan etməli;
- mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına əsasən aparmalı;
- gücləndirilmiş elektron imzaya sahib olmalı və yazışmaların elektron şəkildə aparılmasına üstünlük verməli;
- saxta sənədlər (o cümlədən ciddi hesabat sənədləri) qəbul və təqdim etməməli (əmtəəsiz əməliyyatlar aparmamalı);
- son 3 il ərzində iqtisadi sahədə cinayətin törədilməsinə görə barəsində cinayət təqibi aparılmamalıdır (bəraətverici əsaslarla icraatına xitam verilmiş cinayət işləri istisna olmaqla).

«Şəffaf vergi partnyoru» statusu almaq üçün vergi ödəyicisinin müraciəti və ya onun qeydiyyatda olduğu vergi orqanının qərarı əsasında namizədlər müəyyən edilir, onların yuxarıda qeyd olunan meyarlara uyğunluğu araşdırıldıqdan sonra vergi orqanı tərəfindən müsbət rəy verildiyi halda, Vergilər Nazirliyinin müvafiq strukturu tərəfindən bu məlumat bir daha araşdırılır və yekun olaraq vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» unikal koda malik olması barədə bildiriş təqdim olunur.

2017-ci ilin əvvəlindən partnyor ödəyici statusunun alınması üçün vergi orqanları tərəfindən seçilən və ya vergi orqanlarına müraciət edən 841 vergi ödəyicisi barədə məlumatlar «Şəffaf vergi partnyoru» ekranına daxil edilmiş və meyarlara uyğun olduğu müəyyən edilən 480 (o cümlədən Bakı şəhəri üzrə 221) vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlər təqdim olunmuşdur.

Vergi orqanları tərəfindən şəffaf vergi partnyorlarına «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlərin təqdimat mərasimləri keçirilmişdir. Yanvar-noyabr aylarında partnyor ödəyicilərə telefon vasitəsilə 4131 məlumatlandırma xidməti göstərilmiş, 6889 maarifləndirici bildiriş təqdim edilmiş, 326 ünvanlı xidmət göstərilmişdir.

Hazırda respublika üzrə 51 xidmət mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə partnyor vergi ödəyicilərinə xidmətlərin göstərilməsinə dair xüsusi masa ayrılmış, reklam lövhəsi yerləşdirilmiş, partnyor vergi ödəyicilərinin növbədənkənar qəbulu üçün növbə terminalının proqram təminatında sürətli keçid üçün «Yaşıl dəhliz» adında seçim imkanı yaradılmışdır. Bu ilin 11 ayı ərzində 438 partnyor vergi ödəyicisinə müvafiq xidmətlər göstərilmişdir.

Çağrı Mərkəzinə zəng etdikdə partnyor vergi ödəyiciləri səsli menyuda yaradılan xüsusi xətdən istifadə edirlər. Sürətli xidmətlərin göstərilməsi məqsədilə səsli menyuda dəyişiklik edilərək partnyor ödəyicilər üçün ayrıca xətt (4-cü düymə) yaradılmışdır.

Partnyor vergi ödəyicilərinə bir sıra ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlər də təqdim edilir. Vergilər Nazirliyinin internet saytının AKTUAL bölməsində şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri üçün fərdi və sürətli xidmətlərin göstərilməsi prinsipini əks etdirən «Yaşıl dəhliz» alt bölməsi yaradılmış və burada layihə barədə müxtəlif məlumatlar yerləşdirilmiş, o cümlədən partnyor vergi ödəyicilərinin adları qeyd olunmuşdur.

## Gələn il Azərbaycanda qeyri-neft sektorunda 4 faizlik artım gözlənilir

Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd əl-Qorçi mətbuat üçün bəyanatında bildirib ki, yaxın gələcəkdə ölkənin inkişaf perspektivləri müsbətdir. 2018-ci ildə dövlət investisiya xərclərinin və sosial xərclərin genişləndirilməsi ilə qeyri-neft sektorunda 4 faizlik artım gözlənilir.

2018-ci il üzrə IV Maddə Məsləhətləşmələri çərçivəsində müzakirələr aparmaq üçün noyabrın 30-dan dekabrın 14-dək Bakıda səfərdə olan Beynəlxalq Valyuta Fondunun missiyasına rəhbərlik edən Məhəmməd əl-Qorçi açıqlamasında qeyd edib ki, 2017-ci ildə aparılan fəal makroiqtisadi siyasət və neft qiymətlərinin artımı sayəsində Azərbaycan iqtisadiyyatında sabitləşmə müşahidə edilib. Qeyri-neft sektoru xidmət və kənd təsərrüfatı sahələrinin canlanması sayəsində genişlənməyə başlayıb.

Açıqlamada həmçinin qeyd edilir ki, işsizlərə müavinətlərin verilməsi üçün yaradılan yeni sığorta fondunun, pensiyalarla bağlı həyata keçirilən islahatların, fəal əmək bazarı proqramlarına keçidin Azərbaycanda sosial müdafiə sahəsində və əmək bazarında müsbət irəliləyişlərə səbəb olub. Bəyanatın sonunda missiya adından açıq və səmimi müzakirələr, qonaqpərvərlik üçün Azərbaycan tərəfinə minnətdarlıq ifadə edilib.

## Kibercinayətkarlığa qarşı mübarizə gücləndirilir

Dekabrın 15-də Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) ilə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi arasında anlaşma memorandumu imzalanıb.

Memorandum Azərbaycanın bank sektorunda kibertəhlükəsizlik, kibercinayətkarlıq hallarının qarşısının alınması, informasiya texnologiyaları təhlükəsizliyinin təmin edilməsi və maliyyə sektorunun əməkdaşlarının bu sahədə bilik səviyyəsinin artırılması istiqamətində həyata keçirilən tədbirlərin gücləndirilməsi məqsədi daşıyır.

Tədbirdə çıxış edən Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktoru İbrahim Alışov bildirib ki, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi ilə əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş fəaliyyət planına əsasən, agentlik tərəfindən informasiya texnologiyalarının təhlükəsizliyi sahəsində MBNP-yə texniki dəstəyin göstərilməsi, daxili informasiya təhlükəsizliyi siyasətinin (qaydalarının) formalaşdırılması, eləcə də E-poçt təhlükəsizliyin təmin edilməsi, bank hesabları ilə əməliyyatlarda trafikin qorunması və CSRF (Cross-Site Request Foregery) təhlükəsizliyi, proqram təminatında kənar resurslardan hazır kodların çağırılması və kənar kodların istifadəsinin yaratdığı təhlükələrin aradan qaldırılması və s. üzrə təlimlərin keçirilməsi istiqamətində əməkdaşlıq nəzərdə tutulur. Qeyd olunub ki, sadalanan istiqamətlər üzrə birgə əməkdaşlıq sayəsində maliyyə bazarlarının iştirakçıları yarana biləcək təhlükələrdən daim mühafizə olunacaq, bunun da nəticəsində vətəndaşlar təhlükəsiz maliyyə xidmətlərindən faydalana biləcəklər.

Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin rəis müavini Azər Əhədovun sözlərinə görə, Maliyyə Bazarlarına Nəzarət Palatası ilə əməkdaşlıq çox faydalı olacaq. Qarşılıqlı əməkdaşlıq çərçivəsində səyləri birləşdirməklə və bu sahədə uzun illər ərzində əldə edilən təcrübəni bölüşməklə qlobal və regional kibertəhdidlərlə mübarizədə daha böyük uğurlar əldə etmək mümkün olacaqdır. Memorandum çərçivəsində MBNP və onun nəzarət subyektləri xüsusi interaktiv xidmət portalına qoşulmaqla informasiya təhlükəsizliyi sahəsində müvafiq istiqamətlər üzrə tələb olunan vacib məlumatları əldə edəcək, təhlükələr barədə xəbərdar olunacaq, informasiya təhlükəsizliyi kitabxanası və «İnformasiya təhlükəsizliyi» jurnalının xidmətlərindən yararlana biləcəklər.

Bundan əlavə, agentlik tərəfindən digər dövlət orqanlarına göstərilən təhlükəsiz İnternet, DNS, Hosting, E-poçt, həmçinin istifadəçilərin təhlükəsizliyi üçün antivirus həlləri kimi xidmətlər MBNP və onun nəzarət strukturlarına təklif ediləcək.



# Vergi ödəyicilərinə xidmət mərkəzləri rahatlığa və operativliyə təminat verir

**Vergilərin könüllü ödənilməsi sisteminin gücləndirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması, vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi və daha əlçatan olması məqsədilə Vergilər Nazirliyi tərəfindən regionlarda, xüsusilə vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət mərkəzləri yaradılır.**



Hazırda respublikada müasir standartlara cavab verən 57 xidmət mərkəzi uğurla fəaliyyət göstərir. Xidmət mərkəzləri vergi ilə bağlı məsələlərin operativ həlli istiqamətində vergi ödəyicilərinə yardımçı rolunu oynayır. Müasir kompüter və avadanlıqlar, sürətli internet sistemi ilə təchiz edilmiş mərkəzlərin əsas məqsədi həmin regionda fəaliyyət göstərən sahibkarlara müasir standartlara uyğun vergi xidmətləri göstərməkdir.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi ən vacib məsələlərdəndir. Bu istiqamətdə görülən işlər çərçivəsində intizamlı vergi ödəyiciləri üçün «Yaşıl dəhliz» prinsipi əsasında şəffaf vergi partnyorluğu münasibətlərinin qurulması, onlara göstərilən xidmətlərin yüksək səviyyədə təşkili xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, xidmət mərkəzlərində sahibkarlara vergi uçotuna alınmaq, vergi qanunvericiliyinin tətbiqi, vergi bəyannamələrinin tərtib edilməsi və göndərilməsi, vergi ödəyiciləri ilə vergi orqanı arasında elektron sənəd mübadiləsinin aparılması kimi xidmətlərin göstərilməsi, müraciət edənlərə büdcəyə olan borclarını öyrənmək və öz şəxsi vərəqələrinə nəzər salmaq imkanı yaradılması xüsusilə sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün böyük imkanlar yaradır. Sabit vergi ödəyicisi kimi qeydiyyatdan keçən fiziki şəxslər sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbzi də xidmət mərkəzlərindən əldə etmək imkanı qazanıblar.




Regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərində normativ sənədlər və bukletlərdən ibarət məlumat guşəsi yaradılıb ki, bu da sahibkarlıqla məşğul olan şəxslərin daha dolğun məlumatlandırılması işinə mühüm töhfə verir. Bütün xidmətlərin ödənişsiz həyata keçirildiyi mərkəzlərdə müvafiq ərazi vergi orqanı ilə fasiləsiz rabitə üçün telefon xətti və faks quraşdırılıb, vergi sahəsində tələb olunan məlumat bazası ilə təchiz edilmiş kompüterlər vergi ödəyicilərinin ixtiyarına verilib. Eyni zamanda xidmət mərkələrində fiziki şəxslərin qeydiyyatı prosesi həyata keçirilir. Bundan başqa ödəyicilərə vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı telefon vasitəsilə məlumatlar verilir.

Xidmət mərkəzlərinin əməkdaşları sahibkarlara vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatların verilməsi işinə xüsusi diqqət yetirirlər. Vergilərin hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi qanunvericiliyinin tətbiqi məsələləri, vergi bəyannamələrinin təqdim olunma müddətləri, vergi güzəştlərindən istifadə edilməsi barədə vətəndaşlara ətraflı məlumatlar verilir, ərizə, arayış və digər blankların düzgün tərtib olunması üçün lazımi kömək göstərilir.

Lakin müşahidələr göstərir ki, vergi ödəyiciləri xidmət mərkəzlərinin imkanlarından maksimum yararlanmırlar və nəticədə öz işlərində müəyyən çətinliklərlə üzləşirlər. Hətta bəzi vergi ödəyiciləri hansı ünvana müraciət edəcəklərini belə, bilmədiklərini deyirlər. Xatırladaq ki, xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayonlar, onların ünvanları, əlaqə nömrələri, hətta hansı avtobuslarla mərkəzlərə gəlmək imkanı haqqında məlumatları Vergilər Nazirliyinin rəsmi internet saytından (http://www.taxes.gov.az/modul.php?name=terminal&cat=3) əldə etmək mümkündür.

Bütün xidmətlərin ödənişsiz həyata keçirildiyi mərkəzlərdə müvafiq ərazi vergi orqanı ilə fasiləsiz rabitə üçün telefon xətti və faks quraşdırılıb, vergi sahəsində tələb olunan məlumat bazası ilə təchiz edilmiş kompüterlər vergi ödəyicilərinin ixtiyarına verilib.

## Xidmət mərkəzlərinin fəaliyyətindən yararlanan vergi ödəyicilərinin təəssüratları:

***Sahibkar Mübariz İbrahimov*** hesab edir ki, regionlardakı xidmət mərkəzlərinin fəaliyyətindən və buradakı özünəxidmət kompüterlərinin fəaliyyətindən yararlanan iş adamları vergi ödənişləri ilə bağlı hər hansı problemlə qarşılaşmırlar: «Çünki bəyannamələrin doldurulması, vergi ödənişi prosedurları zamanı yarana biləcək texniki məsələlər dərhal aradan qaldırılır və ödəyicilər qısa zaman kəsiyində vergi ilə bağlı işlərini həll edə bilirlər. Xidmət mərkəzində elektron və digər xidmətlərin göstərilməsi üçün lazım olan bütün şərait yaradılıb. Artıq vergi məsələləri ilə bağlı ərazi vergilər idarəsinə, departamentlərə getməyə gərək yoxdur. Burada rahat şəkildə bəyannamə və digər hesabat sənədlərini tərtib edə və lazımi izahatlar ala bilirik. Hər bir vergi ödəyicisinə bu mərkəzlərin xidmətlərindən yararlanmağı tövsiyə edirəm».

***Vergi ödəyicisi Həbib Yusifovun*** sözlərinə görə, xidmət mərkəzlərinin köməyi ilə bütün sənədləşmə işlərini operativ şəkildə həll edə bilir, lazım olan məlumatları əldə etmək imkanı qazanır: «Vergi orqanlarına, əsasən, vergi qanunvericiliyi və elektron xidmətlərlə bağlı müraciət edirəm. Burada göstərilən xidmətlər işimizi xeyli asanlaşdırır».

***Sahibkar Xanlar Qasımov*** da xidmət mərkəzlərinin regionlarda sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini deyir: «Mərkəzdə sahibkarlıq fəaliyyətinə yeni başlamaq istəyən şəxslərə zəruri kömək göstərilir. Bu, öz biznesini qurmaq istəyən hər kəsi sevindirir, fəaliyyətinin genişlənməsinə şərait yaradır».

**Rəşad SADIQOV**

# Nağdsız ödənişlərin aparılması üçün sərfəli platforma

***«Hökumət ödəniş portalı» (HÖP) dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlər üzrə ödənişlərin elektron qaydada toplanılması, büdcə ödənişlərinin aparılması prosesinin sadələşdirilməsi və birbaşa emalının təşkili, kommunal, rabitə, sığorta və digər ödənişlərin vahid platformadan toplanılmasının təmin edilməsi məqsədilə yaradılıb.***

Portalın fəaliyyəti «Elektron hökumət» quruculuğunun inkişaf etdirilməsi istiqamətində dövlət orqanları tərəfindən göstərilən xidmətlər üzrə rüsumlara görə ödənişlərin real vaxt rejimində elektron formada qəbulunu təmin edir, ölkə iqtisadiyyatında nağdsız ödənişlərin həcminin artmasına şərait yaradır. Portalda büdcə, kommunal, «ASAN xidmət», bələdiyyə, rabitə, təhsil, sığorta, ipoteka və digər ödənişləri həyata keçirmək mümkündür. HÖP-ün infrastrukturundan istifadə olunmaqla ödənişlər qəbul edilərkən büdcə təsnifatının, büdcə səviyyəsinin və büdcə təşkilatının kodu kimi vacib rekvizitlər avtomatik rejimdə portal tərəfindən müəyyənləşdirilərək ödəniş tranzaksiyasına əlavə edilir. Eyni zamanda, büdcə vəsaitinin toplanılmasına cavabdeh olan dövlət orqanının müvafiq tabeli qurumunun rekvizitləri də ödəniş məlumatlarının tərkibinə daxil olunur. Bununla da ödənişlərin qəbul edilməsi prosesi sadələşdirilir və baş verən səhvlərin sayı minimuma endirilir.




Portala bələdiyyə orqanları, Daxili İşlər Nazirliyi, Dövlət İmtahan Mərkəzi, Energetika Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Vergilər Nazirliyi, DSMF, Fövqəladə Hallar Nazirliyi, Maliyyə Nazirliyi, məhkəmələr, İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN), Təhsil Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi qoşulublar. Ali təhsil müəssisələri, «Azəriqaz» İB, «Azərişıq» ASC, «Azərbaycan İpoteka Fondu» ASC, «Azəristiliktəchizat» ASC, «Azərsu» ASC, İcbari Sığorta Bürosu, Dövlət Gömrük Komitəsi, Milli Sertifikat Xidmətləri Mərkəzi, habelə «Azercell», «Azerfon», «Bakcell» və stasionar telefon operatorları da portala inteqrasiya olunublar.




HÖP-ün xidmətlərindən istifadə etmək üçün ödəyici ilkin olaraq www.gpp.az internet səhifəsinin «Şəxsi kabinet» bölməsində qeydiyyatdan keçməlidir. Ödəyici şəxsiyyət vəsiqəsinin rekvizitlərindən istifadə edərək identifikasiya olunur, şəxsi virtual kabinet yaradır və avtomatik rejimdə ona portal üzrə unikal identifikasiya kodu verilir. Ödəyici portala inteqrasiya olunmuş dövlət orqanları, kommunal təşkilatlar, rabitə operatorları və digər kütləvi xidmət müəssisələrinin istifadə etdiyi identifikasiya metodlarına uyğun olaraq, əlaqələndirmələr yaradır. Bundan sonra şəxsi virtual kabinetinə daxil olan ödəyici vahid bir elektron məkanda bütün bu xidmətlər üzrə öhdəliklərini görür və ödənişlərini apara bilir. Ödəyicinin bu təşkilatlar qarşısında yaranmış öhdəlikləri haqqında, öz seçimindən asılı olaraq, dərhal SMS və ya e-mail ilə ona məlumat çatdırılır. Həyata keçirilmiş ödənişlərin tarixçəsini istənilən dövr üzrə izləmək mümkündür.




HÖP vasitəsilə ödənişlər bank və ya poçt bölmələrində, respublika ərazisində fəaliyyət göstərən bütün bankların xidmət şəbəkələrində, ödəniş terminallarında və portalın internet resursundan (www.gpp.az), bankların elektron bankçılıq xidmətlərindən istifadə edilməklə ödəniş kartları və bank hesabları vasitəsilə nağdsız qaydada qəbul edilir. Ödənişləri «internet service», «e-banking» və bankomatlar vasitəsilə həftənin bütün günləri vaxt məhdudiyyəti olmadan aparmaq mümkündür.

Onu da xatırladaq ki, Nazirlər Kabinetinin qərarı ilə «Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları»na edilmiş əlavələrə əsasən, HÖP-ün çıxarışları ciddi uçot blankına bərabər tutulur.

**AYTƏN**

# İnnovativ inkişaf perspektivləri müzakirə olunub

Bakıda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə «Texnologiyalar və innovasiyalar: iqtisadi islahatlar və inkişaf perspektivləri» mövzusunda konfrans keçirilib. Dövlət, özəl və xarici qurumlardan 100-dək mütəxəssisin iştirak etdiyi tədbir ölkədə innovativ inkişaf perspektivlərinin müzakirəsinə həsr olunub.

Konfransda çıxış edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı ölkəmizdə innovativ layihələrin dəstəkləndiyini vurğulayaraq elmin kommersiyalaşdırılması istiqamətində görülən işlərin səmərəli nəticələr verdiyini qeyd edib. Bildirilib ki, Strateji Yol Xəritəsində nəzərdə tutulan prioritetlərin həyata keçirilməsi nəticəsində 2020-ci ildə real ÜDM-in 235 milyon manat artacağı və telekommunikasiya sektorunda 1450 iş yerinin yaradılacağı proqnozlaşdırılır.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə qeyd edib ki, innovativ inkişaf üçün ölkəmizdə müvafiq institusional qurumlar yaradılıb, bu prosesə dəstək vermək üçün əlverişli mühit formalaşdırılır. Strateji yol xəritələri ölkəmizin innovativ inkişafının daha da sürətlənməsinə xidmət edir. Bu fəaliyyət Azərbaycanın elmi, istehsalat, tədris, iqtisadi və kadr potensialının qarşılıqlı əlaqəsinin güclənməsinə və nəticədə yeni elmi ixtiraların, müasir texnologiyaların və məhsulların, perspektiv həllərin meydana çıxmasına səbəb olacaq.

Konfransda «İslahatların innovasiyaların və İKT-nin inkişafında rolu» və «İnnovativ məhsullar və İT xidmətlərin ixrac potensialı» mövzularında panel müzakirələr təşkil edilib. Müzakirələrdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, «Azərkosmos», «ASAN xidmət», «B.EST Solutions», «Deloitte consulting», «Microsoft» şirkətlərinin, AMEA Yüksək Texnologiyalar Parkının, İnnovasiyalar Mərkəzinin nümayəndələri təqdimatlarla çıxış ediblər.

**FƏXRİYYƏ**

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa,
**Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

### Sadələşdirilmiş vergi

***Bank hesablarından pul vəsaitlərinin nağd qaydada çıxarılması zamanı 1 faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması sadələşdirilmiş verginin ödəyicilərinə aid edilirmi?***

Vergi Məcəlləsinin 150.3-3-cü maddəsinin müddəalarına əsasən, hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru bu Məcəllənin 220.12-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergini hesablamağa, vəsaiti alan şəxsin bank hesabından tutmağa və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə bəyannaməni vergi orqanına verməyə borcludurlar. Bu maddədə göstərilmişdir ki, hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

***Qeyd olunanlara əsasən:***

Bank hesablarından pul vəsaitlərinin nağd qaydada çıxarılması zamanı 1 faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması vergi orqanında uçotda olan hüquqi şəxslərə və fərdi sahibkarlara, o cümlədən sadələşdirilmiş verginin ödəyicisi olan şəxslərə aid edilir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2017-ci ilin yanvar-noyabr aylarında:**

- Ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,2% artaraq **43 milyard 389,9 milyon** manata çatıb.
- Azərbaycanda fəaliyyət göstərən 21 sığorta şirkəti tərəfindən **504.234.798 milyon** manat sığorta haqqı toplanıb.
- «Azexport.az» portalına 71 ölkədən **444.6 milyon** ABŞ dolları dəyərində ixrac sifarişi daxil olub.
- Azərbaycanda qeyri-neft sektoru üzrə ixrac **1 milyard 387 milyon** ABŞ dolları həcmində olub və bu ixrac əməliyyatlarında **1824** subyekt iştirak edib.
- Ölkədə ictimai iaşə dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 3,2% artaraq **1 milyard 204,3 milyon** manata çatıb.
- Kompüter və elektron məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində **188,7 milyon** manatlıq məhsul istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 28,5% və 50,1% artım deməkdir.
- Rabitə xidmətlərindən əldə edilən gəlirin **50,2%**-i mobil telefon rabitəsinin payına düşüb.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əmək-haqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Vergi güzəştləri: investorlara açılan qapı

## İqtisadi islahatlarla paralel şəkildə tətbiq olunan stimullaşdırıcı tədbirlər ölkədə biznes mühitinin fəallaşmasına xidmət edir

***Azərbaycan hökuməti kiçik və orta sahibkarlıq subyektlərinə vergi güzəştlərinin tətbiq olunması imkanını nəzərdən keçirir. Müzakirə edilən təkliflər kiçik və orta sahibkarlığa dövlət dəstəyinin artırılması, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması məqsədi daşıyır. Nəzərdə tutulan güzəştlər kiçik və orta sahibkarlıq subyektlərinin yalnız mənfəət və gəlir vergilərinə şamil olunacaq: güzəştlər bu vergilərdən qismən və müəyyən müddətə azad edilməni nəzərdə tutur.***

***Kənd təsərrüfatında tətbiq olunan vergi güzəştləri***

Xatırladaq ki, hazırda ölkə iqtisadiyyatının müxtəlif istiqamətlərinə vergi güzəştləri tətbiq edilir. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalçıları, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azaddır. Beş illik müddətə nəzərdə tutulan bu güzəşt ilk dəfə ölkə Prezidentinin 1999-cu il 22 mart tarixli fərmanı ilə qüvvəyə minib. Sonradan həmin qanunun müddəti bir neçə dəfə uzadılıb və sonuncu güzəştlər 2014-cü il yanvarın 1-dən qüvvədədir. Ümumilikdə isə kənd təsərrüfatı işçiləri ölkədə tətbiq edilən doqquz növ verginin yeddisindən azaddırlar. Vergi qanunvericiliyinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslərin gəlir vergisindən müddətsiz; mənfəət, əlavə dəyər, əmlak və sadələşdirilmiş vergilərdən isə 5 il müddətinə vergidən azad edilməsi müəyyən edilmişdir. Bundan başqa, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə müvafiq olaraq, 2016-cı il fevralın 1-dən üç il müddətində yerli bank və xarici bankın Azərbaycanda fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, faiz gəlirləri vergi ödənişindən azad edilir. Bundan əlavə, «İnvestisiya təşviqi sənədi»ni almış fərdi sahibkar həmin sənədi aldığı andan əldə etdiyi gəlirin və hüquqi şəxsin həmin sənədi aldığı andan əldə etdiyi mənfəətin 50 faizi 7 il müddətinə gəlir vergisindən azaddır. Vergi güzəştlərinin tətbiq olunduğu sahələrə kənd təsərrüfatı məhsullarının istehsalında istifadə edilən malların idxalı və satışı da daxildir.

***Məqsədli vergi güzəştləri***

Vergi Məcəlləsinin 164.1.16-cı maddəsində qeyd edilib ki, müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədli sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - rezidentin sənaye və texnologiyalar parkında qeydiyyata alındığı tarixdən 7 il müddətinə ƏDV-dən azad olunur. Hazırda qüvvədə olan bütün vergi güzəştlərinin əsas məqsədi iqtisadiyyatın inkişafını stimullaşdırmaq, o cümlədən kənd təsərrüfatını inkişaf etdirmək, bu sahədə investisiya qoyuluşları üçün əlverişli imkanlar yaratmaq, biznes mühitini daha da yaxşılaşdırmaq, qeyri-neft ixrac potensialını genişləndirmək, yeni iş yerlərinin açılmasına, real sektorda əhalinin məşğulluğunun artırılmasına nail olmaqdır.

Bəs Azərbaycanda tətbiq olunan geniş spektrli vergi güzəştləri real sektorun inkişafına, iqtisadiyyata investisiya qoyuluşlarına nə dərəcədə təsir edir? Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadənin fikrincə, hazırda qüvvədə olan vergi güzəştləri Prezident İlham Əliyevin iqtisadi islahatlarla əlaqədar müəyyən etdiyi tədbirlərin uğurla həyata keçirilməsi üçün çox vacibdir. Onun sözlərinə görə, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması, yerli və xarici investorların Azərbaycana sərmayə qoyuluşuna cəlb edilməsi üçün vergi güzəştləri ilə yanaşı, digər addımlar da atılır: «İqtisadi islahatlarla əlaqədar bu cür stimullaşdırıcı tədbirlər iş adamları, Azərbaycana sərmayə qoymaq istəyən xarici investorlar, eləcə də özəl sektor təmsilçiləri tərəfindən məmnuniyyətlə qarşılanır. Artıq bir neçə ildir ardıcıl olaraq Vergi Məcəlləsində də yumşaldıcı dəyişikliklər aparılır. Bu dəyişikliklərin əsas prinsipi vergi güzəştlərinin daha da genişləndirilməsi, vergi ödəyicilərinin iqtisadi aktivliyinin artırılmasıdır. Vergi Məcəlləsində 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş dəyişikliklərdə də sahibkarlıq subyektləri üçün kifayət qədər vergi güzəştləri nəzərdə tutulmuşdu. Bütün bunlar investisiyanın təşviqinə, ölkədə iqtisadi aktivliyin təmin olunmasına, sahibkarlıq və biznes fəaliyyətinin genişləndirilməsinə xidmət edir».

***Azərbaycana sərmayə qoyuluşu stimullaşdırılır***

Ziyad Səmədzadə bildirib ki, məhz bu cür stimullaşdırıcı tədbirlər sayəsində həm yerli, həm də xarici investisiya şirkətləri Azərbaycanın qeyri-neft sektoruna sərmayə qoyuluşunda fəal iştirak etməyə başlayıb. Onun sözlərinə görə, həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda investisiya mühiti gündən-günə, ildən-ilə yaxşılaşır, ölkəmizə qoyulan investisiyaların həcmi genişlənir, xüsusilə özəl sektorda fəaliyyət göstərən şirkətlərin sayı çoxalır: «Bütün bunların kökündə ölkədə aparılan iqtisadi islahatlar dayanır. Bu islahatlar fonunda qeyri-neft sektorunun inkişaf etdirilməsi, iqtisadi səmərəliliyin artırılması üçün yeni yanaşmalar tətbiq edilir. Belə tədbirlər iqtisadi fəallığın genişlənməsinə, real sektora daha çox investisiyaların cəlb olunmasına, xüsusilə də xarici sərmayədarların Azərbaycana marağının artmasına şərait yaradır». Millət vəkili vurğulayıb ki, milli qanunvericilik bazası, o cümlədən Vergi Məcəlləsinə edilən son dəyişikliklər qeyri-neft sektorunda, o cümlədən kənd təsərrüfatı, tranzit yük daşımaları, metallurgiya, cihazqayırma, kimya, yeyinti məhsulları, yüngül sənaye və digər sahələrdə investorların maraqlarını maksimum dərəcədə təmin edir. Qeyd edilib ki, iqtisadi islahatlar, milli qanunvericiliyin təkmilləşdirilməsi, vergi güzəştlərinin tətbiqi, iqtisadi fəaliyyət sahələrinin lisenziyalaşdırılmasının asanlaşdırılması kimi kompleks tədbirlər real sektorun inkişafına, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına, biznes mühitinin daha da yaxşılaşdırılmasına yönəldilib: «İqtisad elmində belə bir kəlam var: hansı sahəyə kapital qoyursansa, deməli, orada mənfəət var. Aydın məsələdir ki, mənfəət olmayan yerə heç kəs kapital qoymaz. Azərbaycanda elə bir iqtisadi mühit formalaşıb ki, özəl şirkətlər hansı sahəyə kapital yatırırsa, oradan kifayət qədər mənfəət götürmək imkanı var. Çünki ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması üçün dövlət sahibkarlara hər cür dəstək verir. Təkcə bir faktı xatırlatmaq kifayətdir: 1999-cu ildən Azərbaycanda kənd təsərrüfatı sahələri, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilib. İndiyədək heç bir qanunda, hansı sahədə fəaliyyət göstərməsinə baxmayaraq, investorların təqibinə, onun maraqlarına zərər vura biləcək hər hansı müddəa daxil edilməyib».

Milli Məclisin komitə sədri Azərbaycanın xarici investorlar üçün ən az riskli ölkələr sırasında olduğunu da xüsusi vurğulayıb. Onun sözlərinə görə, inkişaf etmiş ölkələrdə, adətən, investisiya layihələrinin gələcək taleyi risk altına düşməsin deyə, investorlar sərmayə qoymaq istədikləri ölkənin xarici borcunun hansı səviyyədə olduğunu əvvəlcədən bilmək istəyirlər: «Xarici sərmayədarın investisiya qoymaq istədiyi ölkənin xarici borcu ilə maraqlanması təbii haldır və bunu hər kəs anlayır. Mən əminliklə bəyan edirəm ki, bu məsələdə Azərbaycanda heç bir risk yoxdur və gələcəkdə də gözlənilmir. Çünki hazırda Azərbaycanın xarici borcu ölkə üzrə ÜDM-in heç 18 faizi qədər deyil. Bu isə inkişaf edən ölkələr arasında ən yaxşı göstəricilərdən hesab olunur. Üstəlik, Azərbaycanda investorlar üçün əlverişli siyasi və iqtisadi mühit formalaşıb, ölkədə ictimai sabitlik təmin olunub, sahibkarlara dəstək göstərilir. Azərbaycanda yeni yaradılan texnoparkların rezidentləri 7 il müddətinə vergidən azad edilir. Bütün bunlar ölkədə investisiya mühitinin cəlbediciliyinə, sahibkarlıq fəaliyyəti göstərən özəl şirkətlərin maraqlarının qorunmasına yönəldilən mühüm dövlət dəstəyinin bariz nümunələridir».

Azərbaycanda tikinti və daşınmaz əmlak sektorunun da investorlar üçün cəlbediciliyinə diqqət çəkən Z.Səmədzadə qeyd edib ki, hazırda ölkə iqtisadiyyatında ən gəlirli sahələrdən biri məhz bu sahədir - milyonlarla insan daşınmaz əmlak bazarının birbaşa iştirakçısı rolunda çıxış edir, yerli və xarici şirkətlər tikinti sektoruna daha çox sərmayə qoymağa çalışır: «Çünki Azərbaycanda biznes qurmaq, xüsusilə tikinti sektoruna investisiya yatırıb qısa vaxt ərzində bu layihələrdən mənfəət qazanmaq imkanı çox genişdir. Belə investisiyalar həm də ölkə iqtisadiyyatının dinamik inkişafı, məşğulluğun artırılması, yeni gəlir mənbələrinin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Bir sıra sahələr üçün nəzərdə tutulan vergi güzəştlərinə də bu prizmadan baxmaq lazımdır. Çünki müəyyən sahələr var ki, məhz vergi güzəştlərinin tətbiqi hesabına son illər xeyli nailiyyətlər qazanılıb».

Yeri gəlmişkən, vergi sistemində güzəşt və imtiyazların tətbiqi «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da əksini tapıb. Konsepsiyaya görə, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün Vergilər Nazirliyinin xətti ilə büdcə gəlirləri ildə 10-15 faiz artmalıdır. Ekspertlər bildirirlər ki, iqtisadiyyatın bəzi sahələrinə vergi güzəştlərinin tətbiqi dövlət büdcəsini vəsaitlərin bir qismindən məhrum etsə də, əlavə gəlir mənbələrinin yaradılması ilə həmin itkilər kompensasiya olunur. Vergi güzəştləri və ya müəyyən sahələr üzrə vergi dərəcələrinin aşağı salınması iqtisadiyyatın genişlənməsinə yardım etdiyindən mədaxilin artması ilə nəticələnir.

***Vergi güzəştləri əvəzində bol məhsul...***

Kənd Təsərrüfatı Nazirliyindən bildirilib ki, bu sektora tətbiq olunan vergi güzəştləri nəticəsində xərclər təxminən 10 faizədək azalıb: kənd təsərrüfatı məhsulları istehsalçıları hər il dövlət büdcəsinə orta hesabla 150 milyon manat vergi ödəməkdən azad olunub. Buraya hüquqi şəxslərdən mənfəət vergisi, hüquqi və fiziki şəxslərdən əlavə dəyər vergisi, hüquqi şəxslərdən sadələşdirilmiş vergi, hüquqi şəxslərdən əmlak vergisi, fiziki şəxslərdən gəlir vergisi daxildir. Əvəzində isə kənd təsərrüfatı məhsullarının bütün növlərinin istehsalında artım müşahidə olunur. Son 10 ildə ölkə üzrə taxıl istehsalı 1,3 dəfə, kartof istehsalı 2 dəfə, meyvə-tərəvəz istehsalı 1,6 dəfə, bostan məhsullarının istehsalı 1,7 dəfə, üzüm istehsalı 2,3 dəfə artıb.

Kənd təsərrüfatı məhsullarının istehsalında müşahidə olunan artım səviyyəsini 2016 və 2017-ci ilin 10 ayı üzrə müvafiq göstəricilərin müqayisəsində daha aydın görə bilərik. 2017-ci ilin yanvar-oktyabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun dəyəri faktiki qiymətlərlə 5,780 milyard manat təşkil edib. Bunun 2 milyard 929,1 milyon manatı heyvandarlıq, 2 milyard 850,9 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür. Ötən ilin yanvar-oktyabr ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 4 faiz, o cümlədən heyvandarlıq məhsullarının istehsalı 2,8 faiz, bitkiçilik məhsullarının istehsalı isə 5,3 faiz artıb. 2017-ci ilin yanvar-oktyabr aylarında tarlalardan 885,9 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 0,7 faiz çox kartof, 1 milyon 316,6 min ton (9,2 faiz çox) tərəvəz məhsulları tədarük olunub. On ay ərzində 720 min ton (4,2 faiz çox) meyvə və giləmeyvə, 135,6 min ton (8,8 faiz çox) üzüm toplanıb. Bundan başqa, diri çəkidə ət istehsalı keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz artaraq 405,2 min ton, süd istehsalı 0,6 faiz artaraq 1 milyon 682,8 min ton, yumurta istehsalı 7,5 faiz artaraq 1 milyard 446,6 milyon ədəd olub.

Göründüyü kimi, kənd təsərrüfatı məhsulları istehsalçılarının vergi güzəştlərindən bəhrələnməsi məhsul bolluğuna geniş zəmin yaradıb.

**Elxan SALAHOV**

# Sənaye sektorunun inkişafına dövlət dəstəyi gücləndirilir

Prezident İlham Əliyevin «Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı fərmanda qeyd edilir ki, «Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının («Aqrarkredit» QSC) «Azərbaycan Beynəlxalq Bankı» Açıq Səhmdar Cəmiyyətindən aldığı, problemli aktivlərin (borcların) əvəzində əldə etdiyi, Azərbaycan Respublikasının ərazisində yerləşən və onun mülkiyyətində (balansında) olan əmlak, o cümlədən bu Fərmanın əlavəsində göstərilən hüquqi şəxslərə məxsus olmuş dövlət əmlakı «Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyətinin («ASK» ASC) mülkiyyətinə (balansına) verilir.

İqtisadçı ekspert Vüqar Bayramovun fikrincə, «Azərbaycan Sənaye Korporasiyası» Açıq Səhmdar Cəmiyyətinin yaradılmasında məqsəd ölkəmizdə aparılan sənayeləşmə islahatlarının miqyasının daha da genişlənməsinə nail olmaqdır: «Sənaye sektorunun inkişafı iqtisadi diversifikasiya ilə bağlı hədəflərə nail olunmasında əsas priortitetlərdəndir.

Yeni qurumun yaradılması qarşıya qoyulan hədəflərə nail olunması baxımdan əhəmiyyətli hesab edilir. Bütövlükdə, beynəlxalq təcrübədə bu istiqamətdə həm dövlət, həm də publik-hüquqi şəxs formasında qurumlar fəaliyyət göstərir. Bu tip qurumların isə məqsədi konkret olaraq seçilmiş sektorlarda islahatı dəstəkləmək və inkişafa nail olmaqdır».

Ekspertin sözlərinə görə, neftin dünya bazarında qiyməti aşağı düşəndən bəri sənaye sektorunun dəstəklənməsi və təşviq edilməsi əsas priortitetlər siyahısındadır: «Azərbaycanda bu sektorun daha da inkişaf etdirilməsi üçün kifayət qədər ciddi islahatlar həyata keçirilməkdədir. Dövlət başçısının siyasi iradəsi nəticəsində həyata keçirilən islahatlar sənayenin ölkə iqtisadiyyatında payının artmasına gətirib çıxarmışdır. Bundan əlavə, sənayenin həm ümumi iqtisadiyyatda, həm də qeyri-neft ixracatında payının artırılması əsas hədəf olaraq qalmaqdadır ki, islahatlar da məhz bu məqsədə çatmağa imkan yaradır. İqtisadiyyatın şaxələndirilməsi üçün birmənalı şəkildə sənaye sektorunun inkişafının dəstəklənməsinə və sənayenin həm ÜDM-in formalaşmasında, həm də ixracatda payının artırılmasına ehtiyac var. Çünki sənayeləşmə ixracatın daha innovativ şaxələndirilməsi baxımından vacibdir».

Qeyd olunub ki, «Azərbaycan Sənaye Korporasiyası» ASC-nin yaradılması nəticə etibarilə sənaye sektorunun inkişafına təkan verəcək, xüsusilə də dövlət mülkiyyətinin tənzimlənməsi və nəzarətin gücləndirilməsi baxımından əhəmiyyətli olacaq bu qurumun fəaliyyətinin yaxşı təşkil edilməsi iqtisadiyyatda sənayenin payının xeyli artmasına gətirib çıxaracaq.

**Fəxriyyə İKRAMQIZI**

# Kiçik və orta sahibkarlığın inkişafı əsas prioritetlərdəndir

***Kiçik və orta sahibkarlığın (KOS) inkişafı iqtisadi islahatların diqqət mərkəzindədir və bu sahədə qarşıdakı illərdə kompleks tədbirlərin görülməsi nəzərdə tutulur.***

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Elçin İbrahimov bildirib ki, Azərbaycanda KOS-un inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın sürətlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. KOS-un inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadə etmək istiqamətində hədəflər müəyyənləşdirilib. Bura daxildir:

♦ KOS-un ÜDM-ə təsirini artırmaq məqsədilə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması;

♦ KOS subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması məqsədilə maliyyələşmə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi;

♦ Ölkədə istehsal olunan malların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə KOS-un fəaliyyətinin beynəlmiləlləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması;

♦ KOS subyektlərində bacarıqların inkişafına xüsusi diqqət ayırmaqla, regional bazarlarda keyfiyyətli məhsul və xidmətlər təklifinin artırılması;

♦ KOS subyektlərinin rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların təşviqi, bu sahə ilə bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi.

Əsas fəaliyyət Azərbaycanda KOS subyektlərinə münasibətdə qanunvericilik bazasının təkmilləşdirilərək maliyyə və vergi siyasətinin stimullaşdırıcı təsirinin gücləndirilməsi, maliyyə resurslarına əlçatanlığın artırılması, texniki və informasiya bazasının gücləndirilməsi və ərazi üzrə optimal yerləşdirilməsi, daxili bazarın qorunması, bazar infrastrukturlarının inkişaf etdirilməsi, zəruri sənədlərin alınmasında «bir pəncərə» prinsipinin tətbiqi, bu sahəni təmsil edən subyektlər arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi və s. kimi istiqamətlərə yönəldiləcəkdir.

Qeyd edək ki, 2017-ci ildə KOS sektorunun inkişafı ilə bağlı qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq, lisenziya sistemi təkmilləşdirilib, lisenziyaların və icazələrin elektron qaydada verilməsinə şərait yaradan «Lisenziyalar və icazələr» portalı istifadəyə verilib. Bununla yanaşı, aidiyyəti qurumlardan daxil olan təkliflər əsasında lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin «Lisenziyalar və icazələr» portalı vasitəsilə həyata keçirilməsi üçün son müddətlər, «İnformasiya sistemlərinin «Lisenziyalar və icazələr» portalına inteqrasiyası üçün texniki tələblər», portala inteqrasiya edilməli informasiya sistemlərinin siyahısı və s. ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərar layihələri hazırlanıb. Həmin layihələrin aidiyyəti üzrə təqdim olunması nəzərdə tutulur.

KOS subyektləri arasında biznes tərəfdaşlığının və qadın sahibkarlığının inkişafı üzrə stimullaşdırıcı mexanizmlərin işlənməsi, biznes assosiasiyalarının hüquqi statusu ilə bağlı beynəlxalq təcrübə araşdırılıb. Bundan başqa, KOS evlərinin yaradılması ilə bağlı konseptual xarakterli təkliflər də aidiyyəti üzrə təqdim edilib. Sahibkarlığın inkişafı, bu sahədə operativliyin əldə olunması, elektron xidmətlərə keçid və müxtəlif məlumat mənbələrinə çıxışın sadələşdirilməsi məqsədilə vahid məlumat portalının yaradılması istiqamətində müvafiq işlər görülüb. Sahibkarlıq sahəsində xarici ölkələrdə mövcud olan portallar, o cümlədən onların vasitəsilə sahibkarlara göstərilən məlumatlandırma və maarifləndirmə, elektron qeydiyyat və digər elektron xidmətlər araşdırılıb, altı ölkənin - Gürcüstan, Yunanıstan, ABŞ, Hindistan, Avstraliya, Türkiyə təcrübəsi öyrənilib və bu istiqamətdə iş davam etdirilir.

Ölkəmizdə istehsal olunan məhsulun sertifikatlaşdırılmasının sadələşdirilmiş qaydada «bir pəncərə» prinsipi əsasında təşkilinin «ABAD» mərkəzlər vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur. Dövlət-özəl tərəfdaşlığının inkişafı ilə bağlı konsepsiyanın hazırlanması üzrə tədbirin icrası istiqamətində ABŞ, Kanada, Yaponiya, Çin, Böyük Britaniya, Fransa, Almaniya və İtaliyanın təcrübəsi araşdırılıb və «Azərbaycan Respublikasının dövlət-özəl tərəfdaşlığı üzrə İnkişaf Konsepsiyası» layihəsi hazırlanıb. Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı komissiya çərçivəsində «Əmtəə bazarının səmərəliliyi və rəqabət» istiqaməti üzrə işçi qrup yaradılıb, Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanıb.

Dövlət-özəl əməkdaşlığının genişləndirilməsi, kiçik və orta sahibkarların fəaliyyətini stimullaşdıran innovasiya infrastrukturunun formalaşdırılması istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcək.




> “KOS-un inkişafı ilə əlaqədar Strateji Yol Xəritəsində müəyyənləşdirilən məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadə etmək istiqamətində hədəflər müəyyənləşdirilib

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Gürcüstanda «Azərbaycan Ticarət Evi»nin açılması planlaşdırılır.

«Azexport.az» portalına daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya, Türkiyə, Ukrayna, Hindistan və ABŞ kimi ölkələrin adı yer alıb.

Noyabr ayında nara və ondan istehsal olunan məhsullara xarici sifarişlərin artdığı müşahidə edilib.

Dekabrın 24-25-də Rusiya Federasiyasının Arxangelsk vilayətindən Azərbaycana biznes missiyasının gələcəyi gözlənilir.

Dekabrın 18-də Azərbaycanın Çexiyadakı səfirliyində Gəncə avtomobil zavodu ilə Çexiyanın «Tatra» şirkəti arasında bu şirkətə məxsus yük maşınlarının ölkəmizdə istehsalı barədə əməkdaşlığa dair Memorandum imzalanıb.

Azərbaycanın təsisçi-üzv olduğu Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) Direktorlar Şurası daha dörd ölkənin banka üzvlük müraciətinə müsbət cavab verib.

İqtisadiyyat və biznes sahəsində «UĞUR» Milli Mükafatının 2017-ci il üzrə təqdimetmə mərasimində «Made in Azerbaijan» brendinin təşviqində verdiyi töhfəyə görə «Patent və Əmtəə Nişanları Mərkəzi» publik hüquqi şəxsi bu mükafata layiq görülüb.

# «Bakı yanaşması» təqdim edilib

Maliyyə Bazarlarına Nəzarət Palatası ilə banklar arasında görüş keçirilib. Azərbaycan Banklar Assosiasiyasının (ABA) təşkil etdiyi görüşdə «Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi»nin «Qeyri-işlək aktivlərin idarə edilməsi üzrə hüquqi mexanizmlərin yaradılması» tədbirinin icrası üzrə Dünya Bankı ilə birlikdə hazırlanmış «Bakı yanaşması»nın təqdimatı olub.

«Bakı yanaşması» əvvəlcədən müəyyən edilmiş parametrlər üzrə bankların balansında olan qeyri-işlək aktivlərin restrukturizasiyası və bu çərçivədə ABA, Maliyyə Bazarlarına Nəzarət Palatası və prosesdə iştirak etmək niyyətində olan banklar arasında kollektiv sazişin bağlanılmasını nəzərdə tutur. Burada əsas məqsəd hüquqi şəxslər, banklar və aidiyyəti şəxslər arasında razılaşma əldə edilməklə itkilərin azaldılması və həlb də sağlamlaşma imkanı olan biznes qurumlarının iflasının qarşısının alınmasıdır.

Konsepsiyanın əsas xüsusiyyəti ondan ibarətdir ki, banklar balansda olan qeyri-işlək aktivlərlə bağlı problemlərin həlli ilə bağlı fərdi deyil, kollektiv maraqlar üzrə əməkdaşlıq edir. Borcların restrukturizasiyası ilə bağlı qərarlar yekdilliklə qəbul edilir. Qeyri-işlək aktivlərin restrukturizasiyası ilə bağlı «Bakı yanaşması» banklar tərəfindən maraqla qarşılanıb və bu çərçivədə kollektiv sazişin bağlanması məqsədilə danışıqlara başlanılması, eləcə də bankların və Maliyyə Bazarlarına Nəzarət Palatasının nümayəndələrindən ibarət işçi qrupunun yaradılması qərara alınıb.

# İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Manatın gələcək məzənnəsi üçün ciddi risklər gözlənilmir

## *Ölkədə ixracın şaxələndirilməsi milli valyutaya xarici təsirləri azaldır*

ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FED) dekabrın 13-də keçirilən iclasında uçot dərəcəsinin 1,25%-dən (0,25%) 1,50 %-dək artırılması haqqında qərar qəbul edilib və bu addımın iqtisadiyyatın inkişafının stimullaşdırılması üçün atıldığı bildirilib. FED bəyan edib ki, ölkə iqtisadiyyatının bundan sonra dövlətin böyük yardımına ehtiyacı yoxdur, indiyə qədər uçot dərəcələrinin aşağı endirilməsi və sabit saxlanılması siyasəti yürüdülürdüsə, bundan sonra əksinə olacaq. Qurum 2018-ci ildə uçot dərəcəsini üç dəfə artıracağını da istisna etməyib: faiz dərəcəsinin mərhələli şəkildə 2,8-ə çatdırılacağı gözlənilir.

Bu qərar dünyanın əsas valyutası hesab olunan dolların məzənnəsinə təsir edəcək. Beynəlxalq maliyyə bazarları üzrə ekspertlərin, dünyanın aparıcı banklarının, Açıq Bazar Əməliyyatları üzrə Komitənin proqnozlarına əsasən, yeni ildən ABŞ valyutasının bahalaşması qaçılmaz olacaq. «Bank of America», «BNP Paribas» və «JPMorgan Chase» kimi qurumların ekspertləri bildiriblər ki, ABŞ-ın maliyyə və vergi islahatları fonunda uçot dərəcələrinin davamlı şəkildə artması baş verəcək və bunun beynəlxalq bazarlara ciddi təsirləri olacaq. «Bank of America»nın qlobal reytinqlər və valyuta bazarları şöbəsinin müdiri Devid Vunun sözlərinə görə, FED-in yürütdüyü monetar siyasət digər valyutalara nisbətdə dolların xeyrinə işləyəcək.

Bəs ABŞ hökumətinin bu qərarının beynəlxalq maliyyə bazarı ilə bilavasitə əlaqəli olan Azərbaycan üçün hansı təsirləri ola bilər? İqtisadçı ekspert Vüqar Bayramov hesab edir ki, FED-in uçot stavkasının artırılması ilə bağlı qərarından sonra ABŞ valyutasına tələb arta bilər: «Dekabrın əvvəlindən xarici valyutalara tələb yüksəlib və idxalın artması, bayramlarla bağlı xarici səfərlərin sayının çoxalması və ən əsası, özəl və dövlət müəssisələrinin builki xarici borc öhdəliklərini ödəmə vaxtın başa çatması dollara tələbi artıran amillərdəndir. Hazırda banklar dolların alış və satış kurslarını cüzi də olsa artırıblar. Son aylar dolların alış kursu ilk dəfə 1.705-ə yüksəlib. Artıq əksər banklar 100 dollara 170 manatdan çox vəsait ödəyirlər. Məzənnənin qarşıdakı günlərdə necə dəyişməsi isə birbaşa Mərkəzi Bankın (MB) mövqeyindən asılı olacaq. MB mövcud kursu qoruyub saxlamaq üçün hərrraclara daha çox valyuta çıxarılmasını təmin etməlidir».

İqtisadçı ekspert Rəşad Həsənov isə bildirib ki, manatın məzənnəsi 2018- il üçün neftin qiyməti ilə bağlı dəyişmələrdən asılı olacaq: «Gələn il neftin bir barelinin orta qiymətinin 48-50 dollar ətrafında olması manat üçün təhlükə yaratmayacaq. Beynəlxalq maliyyə təşkilatlarının açıqlamalarına görə, qarşıdakı ildə neft təxminən 55-60 dollara bərabər olacaq, bu isə manatın məzənnəsi üçün hər hansı ciddi risk yaratmır».

Milli Məclisin deputatı Vahid Əhmədov mətbuata açıqlamasında bildirib ki, manatın məzənnəsinin aşağı düşməsi gözlənilmir. Çünki pul kütləsinə nəzarət mexanizminin həyata keçirilməsi ilə bağlı aparılan siyasət, idxal-ixracda müsbət saldo və digər bu kimi amillər milli valyutanın indiki vəziyyətdə qorunub saxlanılacağına zəmin yaradır. Gələn il qeyri-neft və neft ixracının həcmi artarsa, idxalın həcmi isə azalarsa, manata olan xarici təsirlər də minimuma enəcək.

Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov da bu sahədə narahatlığa əsas olmadığını bəyan edərək bildirib ki, manatın məzənnəsi «üzən məzənnə» rejimində formalaşdırılıb və mövcud bazar mexanizmləri milli valyutanın sabit qalmasını təmin edib, tədiyyə balansında müsbət dinamikanın müşahidə edilməsi manatın möhkəmlənməsinə zəmin yaradıb. Hökumətin müəyyən etdiyi iqtisadi strategiya, ixracın şaxələndirilməsi və dəstəklənməsi siyasəti, Maliyyə Sabitliyi Şurası tərəfindən verilmiş qərarların icrası, formalaşmış makroiqtisadi çərçivə manatın gələcək məzənnəsi üçün hər hansı risklər yaratmır. Hazırda hökumətin əsas hədəflərindən biri 2018-ci ildə makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsinə yönəldilmiş siyasəti davam etdirmək və manatın məzənnəsini qorumaqdır.

Qeyd edək ki, «Fitch» beynəlxalq reytinq agentliyinin analitikləri də 2018-ci ildə manatın dollara nisbətən məzənnəsinin 1,7 səviyyəsində qalacağını proqnozlaşdırırlar.

> Pul kütləsinə nəzarət mexanizminin həyata keçirilməsi ilə bağlı aparılan siyasət, idxal-ixracda müsbət saldo və digər bu kimi amillər milli valyutanın indiki vəziyyətdə qorunub saxlanılacağına zəmin yaradır

**E.CƏFƏRLİ**

# Aqrar sığorta sahəsində dünya təcrübəsi

Ölkəmizdə qeyri-neft sektorunun inkişafına ciddi təsir göstərən sahələrdən biri də aqrar sahədir. İntensiv metodlara əsaslanan aqrar sektorun yaradılmasına yönəldilən siyasət, bu sahəyə göstərilən dövlət dəstəyi kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə şərait yaradır. Bunlarla yanaşı, ölkədə kənd təsərrüfatı məhsullarının istehsalına təsir edən təbiətlə bağlı risklərin düzgün və səmərəli idarə edilməsi və qiymətləndirilməsi üçün mövcud aqrar sığorta sisteminin təkmilləşdirilməsi prosesi gedir. Mövzunu iqtisadiyyat üzrə fəlsəfə doktoru, kənd təsərrüfatı eksperti Rofət Hüseynəliyev şərh edir.

Müasir aqrar-sığorta modelinin yaradılması, sistemin səmərəli fəaliyyəti üçün müvafiq hüquqi-normativ bazanın təmin edilməsi ilə bağlı müzakirələr aparılır. Hazırda aqrar sığorta sahəsində ən ciddi problemlərdən biri ümumi sığorta portfelində kənd təsərrüfatı sahəsinin payının az olmasıdır. Respublikamızda suvarılan torpaq sahələri 1 milyon 400 min hektar ərazini əhatə edir. Ölkə ərazisində 862 mindən çox ailə təsərrüfatı olsa da, onların az hissəsi sığorta xidmətlərindən istifadə edir. Araşdırmalar göstərir ki, qəbul edilmiş stimullaşdırıcı tədbirlərin icrası olaraq, kənd təsərrüfatı məhsullarının sığortalanması üçün dövlət büdcəsində vəsait nəzərdə tutulsa da, həmin vəsaitlərin faktiki istifadə səviyyəsi çox aşağıdır.

Sığorta xidmətlərindən istifadəyə meyilin az olmasının əsas səbəbləri kimi fermerlər arasında maarifləndirmə işinin aparılmamasını və ya aşağı səviyyədə görülməsini, maddi imkansızlığı, habelə vəsait çatışmazlığını göstərmək olar. Beləliklə, aparılan təhlillər ölkədə kənd təsərrüfatı sahəsində sığorta sisteminin təkmilləşdirilməsi üçün əsaslı islahatların reallaşdırılmasının zəruri olduğunu deməyə əsas verir. Əvvəlcə aqrar sığorta sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi məsələləri araşdırılmalıdır. Bu sahədə qardaş Türkiyə Respublikasının təcrübəsi olduqca maraqlıdır. Bu ölkədə kənd təsərrüfatı məhsulları istehsalının inkişafı, eyni zamanda müvafiq sahə üzrə aparılan sığorta işinin stimullaşdırılması üçün 2005-ci ildə «Tarım Siqortaları Kanunu» (Kənd təsərrüfatının sığortaları haqqında qanun) qəbul edilmiş və 2006-cı il iyulun 1-dən 90 bölgədə həmin qanun çərçivəsində pilot layihənin tətbiqinə başlanılmışdır. Burada daha çox maraq doğuran məsələ dövlət dəstəyi olaraq kənd təsərrüfatı məhsullarının təbii fəlakətlərdən sığortalanması zamanı tətbiq edilən sığorta tariflərinin bölgələr üzrə müxtəlif olmasıdır. Bu qanunun əsas məqsədi aqrar sahədə sığorta fəaliyyətinin inkişafı yolu ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin göstərilməsi, sığorta hadisələri nəticəsində istehsalçılara dəymiş zərərin əvəzinin qısa zamanda ödənilməsi, baş vermiş təbii fəlakət nəticəsində əhaliyə dəymiş zərərin aradan qaldırılması zamanı dövlət büdcəsi vəsaitinin xərclənməsinə müəyyən mənada qənaət olunması kimi məsələləri əhatə edir.

Sığorta fondunun xərclərinə isə baş vermiş sığorta hadisələri üzrə ödəniləcək sığorta məbləğlərinin, fondun idarəetmə üzrə xərclərinin, bağlanılmış sığorta müqavilələri üzrə sığortaçılara verilən komisyon mükafatların, bağlanmış təkrar sığorta müqavilələrinə görə ödəniləcək təkrar sığorta haqlarının, reklam xərclərinin, zərərlərin müəyyənləşdirilməsi məqsədilə çəkilən xərclərin, alınmış kreditlər üzrə əsas borc və faiz məbləğlərinin ödənilməsi və s. daxildir. Sığorta fondunun idarə olunması kənd təsərrüfatı məhsullarının sığortalanmasına razılıq almış sığorta təşkilatları tərəfindən təsis olunan ortaq «işlədici şirkət» (əməliyyat şirkəti) tərəfindən həyata keçirilir. Şirkətin əsas vəzifələrinə aiddir:

- ♦ bağlanmış sığorta müqavilələrinin uçotunun aparılması;
- ♦ sığortalılar tərəfindən sığorta haqlarının vaxtında ödənilməsinə nəzarətin təmin edilməsi;
- ♦ qəbul olunmuş risklərin daxili və ya xarici təkrar sığortaçılara təkrar sığortaya verilməsi və bu məqsədlə müvafiq danışıqların aparılması;
- ♦ baş vermiş sığorta hadisəsi nəticəsində dəymiş zərərin vaxtında müəyyənləşdirilməsi və bununla bağlı müvafiq tədbirlərin görülməsi;
- ♦ qəbul olunmuş qərarların icrası;
- ♦ bu növ sığortanın reallaşdırılması üçün statistik göstəricilərin hazırlanması;
- ♦ fonda daxil olmuş vəsaitin müvafiq qaydada investisiya məqsədilə istifadəsi;
- ♦ kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində çalışan vətəndaşların məlumatlandırılması üçün təbliğat işlərinin gücləndirilməsi və s.

İl ərzində şirkətin görəcəyi işlər, o cümlədən sığorta ödənişlərinin verilməsi, vəsaitlərin investisiya məqsədilə istifadəsi, təbliğat xarakterli tədbirlərin həyata keçirilməsi və s. barədə qərarlar tərkibi 7 nəfərdən ibarət ümumi şura tərəfindən qəbul olunur.

Beynəlxalq təcrübənin təhlili göstərir ki, bir sıra ölkələrdə kiçik kənd təsərrüfatı kreditlərinin spesifik problemlərinin həlli ixtisaslaşmış kooperativ kredit institutlarının yaradılması hesabına mümkün olmuşdur. Dünyada sığortanın inkişaf meyillərini təhlil edərkən tez-tez rastlaşdığımız mövzulardan biri də «İslam sığortası» və ya «təkaful» anlayışları ilə bağlıdır. Təkaful əməliyyatlarının dünya maliyyə sistemində sürətlə inkişafı, habelə maliyyə böhranlarının bu sistemdən təsirsiz ötüşməsi (təkcə bir faktı demək kifayətdir ki, 2007-2010-cu illər arasında təkaful əməliyyatlarının həcmindəki artım illik 28 faiz təşkil etmişdir) istər beynəlxalq təşkilatların, istərsə də ayrı-ayrı transmilli korporasiyaların diqqət mərkəzindədir. Hazırda dünyada 150-yə yaxın müstəqil təkaful şirkəti, 200-dən artıq isə sığorta şirkətinin «təkaful pəncərəsi» mövcuddur. Qeyd olunanlar Azərbaycanın kənd təsərrüfatında sığorta sisteminin təkmilləşdirilməsində təkaful mexanizminə də diqqət yetirilməsinin vacib olduğunu göstərir.

> “ Bir sıra ölkələrdə kiçik kənd təsərrüfatı kreditlərinin spesifik problemlərinin həlli ixtisaslaşmış kooperativ kredit institutlarının yaradılması hesabına mümkün olmuşdur

Azərbaycanda aqrar sahədə sığorta xidmətlərinin təkmilləşdirilməsi üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- aqrar sahə üzrə hazırda qüvvədə olan normativ-hüquqi sənədlərdə sığorta xidmətləri və bu xidmətlərə dövlət dəstəyi ilə bağlı müddəaların konkretləşdirilməsi;
- hüquqi sənədlərdə sahənin inkişafı ilə bağlı tədbirlər üzrə müvafiq dövlət qurumları arasında səlahiyyətlərin dəqiqləşdirilməsi, habelə onların işlərinin vahid mərkəzdən əlaqələndirilməsinin gücləndirilməsi;
- qanunvericilik üzrə xırda pay torpaq sahiblərinin birləşməsinin stimullaşdırılması məqsədilə kooperativlər üçün sığorta xidmətlərinə dövlət dəstəyi sahəsində xüsusi güzəştlərin nəzərdə tutulması;
- aqrar sahədə sığorta xidmətləri ilə bağlı institusional sistemin gücləndirilməsi.

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

## 2017-ci ilin dekabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin noyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən

**cari ilin dekabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq alqı-satqı müqaviləsini təsdiqləyən notarius tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar 2017-ci ilin noyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik – növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 4-cü rüb üzrə bəyannaməni yanvar ayının 22-dən gec olmayaraq təqdim edirlər).
- **Xüsusi notariusların 2017-ci ilin noyabr ayı üzrə hesabladığı gəlir vergisi cari ilin dekabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (4-cü rüb üzrə bəyannamə yanvar ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Dünyanın maliyyə texnologiya şirkətləri Bakıda görüşəcəklər

2018-ci il aprelin 17-18-də Bakıda «Rəqəmsal bankçılıq və təhlükəsizlik» mövzusunda regional konfrans keçiriləcək. Tədbirdə Türkiyənin bank innovasiyaları lideri olan «Denizbank»ın rəqəmsallaşdırma rəhbəri Gurhan Çam skiper kimi çıxış edəcək.

Konfransda «Denizbank» və «Intertech» maliyyə texnologiya şirkəti banklara rəqəmsal bankçılığa transformasiya imkanları və hazır həllər təqdim edəcək, bank avtomatlaşdırma proqram təminatlarını və avadanlıqlarını sərgiləyəcək. Tədbir çərçivəsində maliyyə texnologiya avadanlıqlarının, proqram təminatlarının, bank avtomatlaşdırma sistemlərinin sərgisi baş tutacaq. Həmçinin müasir ödəmə və identifikasiya vasitələri, biometrik ATM ilə yanaşı, «Unionpay», «AliPAY»(«ALIBABA»), «VISA», «Mastercard» kimi maliyyə xidmətləri şirkətlərinin yeni innovativ təqdimatları gözlənilir.

Konfrans «Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi»nin tədbirlər planına uyğun olaraq, bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi istiqamətində görüləcək işlərin bir hissəsidir və «FA International Trade Events» şirkətinin təşkilatçılığı ilə keçirilir.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin dekabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin dekabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edilkdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Rusiyada vergi islahatları təxirə salınıb

Keçən il Prezident Putin hökumətə vergi islahatının mümkünlüyünü nəzərdən keçirməyi tapşırmışdı. Lakin bu ilin sonuna yaxın məlum olmuşdur ki, nəzərdə tutulan islahatlar təxirə salınır. «Vedemosti» qəzetinin məlumatına əsasən, dövlət başçısının məruzəsində bu mövzu ilə bağlı yalnız mədən vergisinin artacağı təqdirdə ixrac rüsumunu ləğv etmək təklif olunmuşdur. Hazırda neftin qiymətinin artması büdcənin maliyyə xərclərini kifayət qədər qarşıladığına görə, vergi sahəsinə aid bütünlüklə iqtisadiyyatı əhatə edən qanun dəyişikliklərindən yeni hökumət formalaşdırılana qədər imtina etmək qərara alınmışdır. Buna baxmayaraq, hökumətin vergi manevrləri ideyasına qayıda biləcəyinin mümkünlüyü də istisna edilmir, çünki Strateji Araşdırmalar Mərkəzinin hazırladığı strategiyanın həyata keçirilməsi üçün 1,5 trilyon rubl vəsait tələb olunur. Xatırladaq ki, Maliyyə Nazirliyi vergi manevrləri kimi sığorta haqlarının 30 faizdən 22 faizə endirilməsini, əlavə dəyər vergisinin isə 18 faizdən 22 faizə qaldırılmasını gündəliyə gətirmişdi.

# İslahatlar sayəsində kiçik ölkələr korporativ vergi gəlirlərini itirəcək

Araşdırmalar göstərmişdir ki, Avropa İttifaqı vergitutmanın yeni qaydalarını tətbiq edəcəyi halda, Malta kimi kiçik iqtisadiyyata malik ölkələr, xüsusilə də onların hazırda çiçəklənməkdə olan korporativ sektoru ciddi ziyanla üzləşə bilər.

«Tax Justice Network» adlı nüfuzlu qeyri-hökumət təşkilatının ekspertləri hesab edirlər ki, Maltada transmilli korporasiyaların törəmə şirkətləri ilə bağlanmış vergi müqavilələri hesabına əldə edilən gəlirlər yarıdan artıq, hətta bəzi hallarda üçdə iki nisbətində azala bilər. Avropa Komissiyasının «Ümumi konsolidasiya edilmiş korporativ vergi bazası» (CCCTB) adı altında irəli sürdüyü hazırkı təkliflərin əsasında aparılmış araşdırmalardan aydın olur ki, məsələn, Almaniya, İspaniya və İtaliya kimi nəhəng iqtisadiyyata malik ölkələr daha böyük mənfəət görəcəkləri halda, Malta, Sloveniya, Estoniya kimi ölkələr korporativ vergidən gələn gəlirlərdə əhəmiyyətli dərəcədə itkiyə məruz qalacaqlar. «Kiçik ölkələr, o cümlədən Çexiya, Portuqaliya və İsveç korporativ vergi bazasının 30 faizinədək itki ilə üzləşəcək, Malta, Sloveniya və Estoniyanın vergi bazalarının azalması isə yarıdan çox olacaq», - «Tax Justice Network»un hesabatında göstərilmişdir.

# Korporativ verginin dərəcəsi qaldırılır

Cənubi Koreya Prezidenti Lun Çjey İnin vergi bərabərsizliyinin aradan qaldırılması ilə bağlı üzərinə götürdüyü öhdəlik çərçivəsində Cənubi Koreyanın ən gəlirli şirkətlərindən tutulan korporativ verginin dərəcəsi gələn ildən 22 faizdən 25 faizə qaldırılacaq. Vergi dərəcəsinin artırılması illik dövriyyəsi 300 milyard vondan (274,5 milyon ABŞ dolları) artıq olan iri şirkətlərə aid ediləcək. İllik gəliri 500 milyon vondan (457.658 ABŞ dolları) çox olan şirkətlər üçün isə fərdi gəlir vergisinin dərəcəsi 40 faizdən 42 faizə qaldırılacaq.

Qanunda nəzərdə tutulan bu dəyişikliklər hazırkı dövlət başçısının seçkiqabağı vədlərinin həyata keçirilməsi nəticəsində baş verir: o, seçicilərinə ölkədəki «ədalətsiz» vergi sistemində ciddi dəyişikliklər aparacağını, iqtisadiyyatda dominant mövqedə olan iri şirkətlərin vergi yükünü artıracağını vəd etmişdi.

# facebook 25 ölkədə vergi ödəyəcək

«Facebook» sosial şəbəkəsi öz ofislərinin mövcud olduğu ölkələrdə yerli satış strukturlarını yaratmaq qərarına gəlmişdir. Qurumun maliyyə direktoru Deyv Vener bildirmişdir ki, şəbəkə reklamlardan gələn bütün gəlirlərindən yerləşmə əsasında vergi ödəmək əvəzinə, vergiləri bu ofislər vasitəsilə ödəyəcək. Bununla da reklamlardan gələn gəlirlər dünyanın 25 ölkəsində vergiyə cəlb olunacaq. «Facebook» bu qərara digər texnologiya nəhəngləri ilə birlikdə vergi planlaşdırılması vasitəsilə vergidən yayınmaqda ittiham olunandan sonra gəlmişdir. «Biz hesab edirik ki, yerli satış strukturu bütün dünyada hökumətlər və siyasi dairələr üçün onların ölkəsindəki satışlarla bağlı şəffaflığı tam təmin edəcək», - Vener demişdir. Onun fikrincə, bu qərarın həyata keçirilməsi əhəmiyyətli həcmdə resurslar tələb edir. Buna baxmayaraq, şirkət vergi məsələlərində gələcəkdə problemlə üzləşməmək üçün təminat yaratmaq məqsədilə yeni billinq sisteminin tətbiqini mümkün qədər tezləşdirməyə can atır. Yeniliklərə 2018-ci ildə başlanılması və 2019-cu ilin birinci yarısında bu prosesin tam başa çatdırılması gözlənilir.

# ƏDV qeydiyyatı həddi azaldılıb

Latviya hökuməti gələn ildən başlayaraq əlavə dəyər vergisinin (ƏDV) ödəyicisi kimi qeydiyyata düşmək üçün tələb olunan dövriyyə həddini azaltmaq barədə qərar qəbul etmişdir.

İndiyə qədər ölkə vətəndaşlarından ƏDV ödəyicisi kimi qeydiyyata düşmək üçün dövriyyənin minimum 50 min avro olması tələb edildiyi halda, artıq həmin hədd 40 min avroya endirilmişdir.

Yeni qayda 2018-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Qeyd edək ki, Latviyada ƏDV-nin standart dərəcəsi 21 faizdir.



# ABŞ-ın vergi islahatlarının qanunazidd məqamları narahatlıq yaradır

Almaniya, Fransa, Birləşmiş Krallıq, İspaniya və İtaliyanın maliyyə nazirlərinin Donald Trampa göndərdikləri məktubda ABŞ-da hazırlanmaqda olan vergi islahatının bir sıra məqamları ilə bağlı ciddi narahatlıq ifadə olunmuşdur. Onlar hesab edirlər ki, nəzərdə tutulan islahatda azad ticarət prinsipləri baxımından təhlükəli olan və xarici şirkətlər üçün ayrı-seçkilik mahiyyəti daşıyan müddəalar var. Məktubda deyilir: «Müasir, rəqabətqabiliyyətli və dayanıqlı vergi sisteminin yaradılması ölkənin suverenliyinin ən vacib tərkib hissəsi olsa da, ABŞ hökumətinin vergi siyasətinin beynəlxalq öhdəliklərə uyğun olması çox mühümdür».

Nazirlər ayrı-ayrı müddəaların maliyyə sektoruna ciddi təhlükə törədəcəyindən narahatdırlar. Onların mövqeyinə görə, ABŞ bazarında fəaliyyət göstərən Avropa şirkətlərinə verginin 100 faiz həcmində effektiv dərəcəsi tətbiq edilə bilər ki, bu da faktiki olaraq ikiqat vergitutmadır. İslahat planına əsasən, kommersiya sektorunda Aİ ilə ABŞ arasında ticarətin az qala yarısının aid olduğu qruddaxili tranzaksiyalar cərimələyə məruz qalacaq, bu isə «iki iqtisadiyyat arasında ticarət və investisiya axınlarına ciddi ziyan vuracaq».

Nazirlərin məktubunda texnologiya sektoru ilə bağlı bildirilmişdir ki, Amerika şirkətləri ixrac subsidiyalarından mənfəət götürəcəklər ki, bu da Dünya Ticarət Təşkilatının qaydalarına açıq-aşkar ziddir.

Bu müraciətdən az sonra Prezident Donald Tramp bəyan etmişdir ki, «ABŞ hazırda yeni iqtisadi möcüzənin astanasındadır». Ağ Evin mətbuat xidmətinin məlumatına görə, Tramp bildirmişdir ki, əgər Konqres Yeni ilə qədər vergi islahatı ilə bağlı qanun layihəsini ona göndərsə, amerikalılar fevralda vergilərin azalmasının və gəlirlərin artımının şahidi olacaqlar. Vurğulanmışdır ki, hazırda ABŞ iqtisadiyyatının illik artımı 3 faiz təşkil edir: «Əgər fırtına olmasaydı, bu rəqəmin dörd faizə çatması mümkün olacaqdı». ABŞ Prezidentinin sözlərinə görə, o hakimiyyətə gəldikdən sonra ölkədə 2,2 milyon iş yeri açılmışdır və işsizlik son 17 ilin ən aşağı səviyyəsindədir.

# Avropa İttifaqı rəqəmsal iqtisadiyyatın islahatını irəli aparmaqda qərarlıdır

Avropa Şurası Avropa İttifaqının (Aİ) rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi ilə bağlı islahatın beynəlxalq səviyyədə müzakirəyə çıxarmalı olduğu ilə razılaşmışdır. Şura ekspertlərinin fikrinə görə, bu sahənin adi biznes üçün hazırlanmış ənənəvi vergi qaydaları ilə idarə edilməsi mümkün deyil, mövcud qaydalar isə malların və xidmətlərin satıldığı ölkələrdə fiziki mövcudluğun tələb olunmadığı fəaliyyət üçün özünü doğrultmur. Avropa Şurası İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə, eləcə də digər beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq şəraitində işləməyi tövsiyə etmişdir.

Şura transfer qiymətləndirmə və gəlirin əldə edilməsi yerinin müəyyənləşdirilməsi qaydalarında dəyişikliklər aparmağın tərəfdarıdır. Gözlənilir ki, OECD 2018-ci ilin aprelində keçiriləcək G20 sammitində rəqəmsal iqtisadiyyatla bağlı aralıq hesabatı təqdim edəcək. «Rəqəmsal iqtisadiyyatın artımı ilə əlaqədar vergi qanunlarına yenidən baxmağımız zəruridir. Həm rəqəmsal, həm də adi şirkətlərə eyni oyun qaydaları tətbiq etmək üçün vergitutmanın beynəlxalq normalarını dəyişdirmək lazım gəlir. Hazırda Aİ bu istiqamətdə fəal iş görür», - Estoniyanın maliyyə naziri Tomas Toniste demişdir.

# Hindistanda elektron xidmətlər üçün vergi yığımı qaldırılmayacaq

Hindistanın Maliyyə Nazirliyi rəsmi açıqlama verərək bildirmişdir ki, proqram təminatı sənayesi üçün müəyyən vergi tələblərinin mənfi nəticələri ilə bağlı narahatlıqların heç bir əsası yoxdur. «Bir sıra kütləvi informasiya vasitələrində xarici ölkələrdəki müştərilərə təqdim edilən informasiya texnologiyaları xidmətləri üçün məmurların vergi yığımını qaldırması barədə məlumat yayılmışdır, - açıqlamada bildirilmişdir. - Lakin sonradan apelyasiya komissiyası yığımların qaldırılması barədə yerli vergi orqanlarının qərarını ləğv edərək, ödənilmiş artıq vəsaitlərin geri qaytarılması barədə qərar qəbul etmişdir. Buna görə də kütləvi informasiya vasitələrində artırılmış vergi yığımlarının proqram təminatı sahəsinə mənfi təsiri, eləcə də bazarda Hindistan proqramçılarının xidmətlərinə tələbatın azalacağı barədə narahatlığı əsassızdır», - nazirliyin açıqlamasında qeyd edilmişdir.



krossvord

**Yuxarıdan aşağı:** 1.Memarlıq termini. Qapı və ya pəncərəni iki yerə bölən üfüqi və ya şaquli hissə; 2.Zərb aləti; 3.Çində etik-siyasi təlim; 4.Səhralarda küləyin təsiri altında sovrulan qum təpəsi; 5.Uilyam Şekspirin məşhur faciəsindən personaj; 6.Zaqatala rayonunda kənd; 9.Sümüklü balıq növü; 13.Zinət əşyalarında istifadə olunan bəzək, daş-qaş (mineral); 15.İngilis yazıçısının soyadı. Daha çox «Alisa möcüzələr ölkəsində» əsəri ilə tanınır; 16.Juzun xanı, Qazaxıstanın azadlıq və müstəqillik simvolu; 17.Rusiya Federasiyasının Kemerevo vilayətində çay; 18.Türkiyə Cümhuriyyətinin paytaxtı; 20.Dəniz nəqliyyat vasitəsi; 21.Balıqçıların istifadə etdikləri alət.

**Soldan sağa:** 1.Pakistanın paytaxtı; 5.Zirehli texnika əleyhinə qumbaraatan; 7.Pravoslav kilsəsinin yüksək ruhani rütbəsini daşıyan şəxs; 8.Bəstəkar, Azərbaycanın xalq artisti. Məşhur mahnıların müəllifidir, bir sıra filmlərə musiqi bəstələyib; 10.Türk qadın adı; 11.ABŞ-da ştat; 12.Vyetnamın paytaxtı. Adı «çaylar arası şəhər» və ya «çaylar əhatə edilən yer» mənasını verir; 14.Siyənəkkimilər ailəsinə mənsub xırda balıq növü; 19.Kart oyunu; 21.Şəki rayonunda şəhər tipli qəsəbə. Əvvəlki adı Orconikidze olub; 22.Litvanın pul vahidi; 23.Zevsin doqquz qızından ən böyüyü və ən ağıllısı, epik poeziya muzası. Adı «gözəlsəsli» mənasını verir; 24.Klassik Azərbaycan ədəbiyyatında obraz - sevgili, dost, yoldaş mənaları verir; 25.XV əsrdən istifadə olunmağa başlanmış yelkənli gəmi.



*«Balıqçının sevinci». Vaqif Ucatay*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Bülbül; 2.Rubikon; 3.İsrar; 4.Tunika; 5.Moeza; 6.Libero; 9.Anje; 13.Kent; 15.Viterit; 16.Mehrab; 17.Etalon; 18.Berinq *(Vitus)*; 20.Dəyər; 21.Küvye *(Jorj)*. **Soldan sağa:** 1.Barrister; 5.Mil; 7.Labirint; 8.Kerb; 10.Ülkər; 11.Kentavr; 12.Oniks; 14.Heyva; 19.Erdenet; 21.Ketle *(Adolf)*; 22.Röya; 23.Əliverdi; 24.Bor; 25.Bundestaq.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

# Azərbaycan daha bir mötəbər yarışa ev sahibliyi edəcək

Bakıda velosiped idmanının BMX növü üzrə 2018-ci ilin iyununda təşkil olunacaq dünya çempionatı ilə əlaqədar Prezident İlham Əliyevin 2017-ci il 15 noyabr tarixli sərəncamına əsasən yaradılmış Təşkilat Komitəsinin dekabrın 13-də ilk iclası keçirilib.




Təşkilat Komitəsinin sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov bildirib ki, Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatının gələn il Bakıda keçirilməsinə dair qərarı Azərbaycanın idman siyasətinin daha bir qələbəsi və beynəlxalq federasiyalar tərəfindən ölkəmizdə görülən işlərə, o cümlədən idman və bədən tərbiyəsi sahəsində əldə olunan nailiyyətlərə verilən növbəti yüksək qiymətdir. O, bu çempionatın Azərbaycanın idman həyatında növbəti mühüm hadisə olacağını qeyd edib və paytaxtımıza gələcək qonaqların ölkəmizdən xoş təəssüratlarla ayrılması üçün hazırlanmış tədbirlər planının yüksək səviyyədə və tam həcmdə həyata keçirilməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Olimpiya idman növü olan BMX üzrə dünya çempionatının Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək üçün geniştərkibli Təşkilat Komitəsi yaratması dövlətimizin başçısının bütövlükdə idmanın, o cümlədən velosiped idmanının inkişafına diqqət və qayğısının daha bir bariz nümunəsidir.

Sonra vergilər nazirinin müavini, Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti Sahib Ələkbərov geniş təqdimatla çıxış edərək, dünya çempionatına hazırlıqla bağlı görülmüş işlər barədə məlumat verib və bu işləri əks etdirən videoçarxı iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edib ki, bu günə qədər artıq 30 ölkə dünya çempionatında iştirakla bağlı müraciət edib və onların sayı getdikcə artmaqdadır. Mötəbər yarışın keçiriləcəyi BMX trekində aparılmış yenidənqurma işlərindən sonra bu ilin oktyabr ayında təşkil olunan dünya sınaq yarışı Beynəlxalq Velosipedçilər İttifaqının rəsmi nümayəndələri tərəfindən yüksək qiymətləndirilib və arenanın dünya çempionatını qəbul etməyə hazır olduğu rəsmi məktubla təsdiqlənib: «Azərbaycan gələn il sayca böyüklər arasında dördüncü dünya çempionatına ev sahibliyi edəcək. Bundan əvvəl Bakıda güləş, boks və gimnastika üzrə dünya çempionatları təşkil olunub. BMX üzrə dünya çempionatının təşkilində məsul olan aidiyyəti qurumlarda artıq işçi qruplar yaradılıb. Velosiped idmanının bu növünün geniş tamaşaçı auditoriyasının olmasını və dünyada populyarlığını nəzərə alan Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə mundiala yüksək səviyyədə ev sahibliyi etmək missiyasını öz üzərimizə götürdük. Dünya çempionatının Azərbaycanda keçirilməsi haqqında qərar 2016-cı ildə qəbul olunub və həmin vaxtdan biz mötəbər yarışın hazırlığına start vermişik. UCI Azərbaycanda idmana göstərilən dövlət qayğısını, idman infrastrukturunun təkmilləşdirilməsi istiqamətində görülən işləri həmişə yüksək qiymətləndirir».

Yarışa hazırlığın plana uyğun davam etdiyini deyən Sahib Ələkbərov 2015-ci ildə ölkəmizdə təşkil olunan ilk Avropa Oyunları zamanı velosiped idmanının üç növü üzrə yarışların təşkil edildiyini diqqətə çatdırıb.

# Şəhriyar Məmmədyarov «Krallar» komandasının heyətində...

Noyabrın 18-dən 24-dək Moskvada şahmat üzrə nəsillərin «Şelkunçik» matç-turniri keçiriləcək. Milad bayramına həsr edilmiş bu turnir çərçivəsində «Krallar» və «Şahzadələr» komandaları arasında ənənəvi qarşıdurma ilə yanaşı, «Kraliçalar» və «Şahzadə xanımlar» arasında da matç nəzərdə tutulur.




«Krallar» komandasının heyətində dünyada 4 reytinq sahibi olan azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov, 2012-ci ilin dünya vitse-çempionu israilli Boris Gelfand, 1999-cu ildə iddiaçıların final matçının qalibi olmuş latviyalı Aleksey Şirov və 2005-ci ilin Rusiya çempionu, Rusiyanın qadınlardan ibarət yığma komandasının baş məşqçisi Sergey Rublyovski çıxış edəcək.

«Şahzadələr» komandasının şərəfini Rusiyanın aparıcı gənc şahmatçıları - 2016-cı il Rusiya çempionatının ali liqasının qalibi Qriqori Oparin, blits üzrə ölkə çempionu Vladislav Artemyev, Rusiyanın ən gənc qrossmeysteri Andrey Yesipenko, habelə bir sıra turnirlərin qalibi və mükafatçısı Daniel Yuffa qoruyacaq.

«Kraliçalar» komandasına qrossmeysterlər Yekaterina Kovalevskaya, Qalina Strutinskaya, Yelena Zayats və Tatyana Qrabuzova daxildir. «Şahzadə xanımlar» komandası Aleksandra Maltsevskaya, Yelizaveta Solojenkina, Yekaterina Qoltseva və Aleksandra Dimitrovadan ibarət heyətlə təmsil olunub.

Şeveningen sistemi üzrə keçirilən turnir iki dövrədən ibarət olacaq. Bir komandanın hər bir oyunçusu digər komandanın hər bir oyunçusu ilə üç partiya oynayacaq - bir klassik şahmat və iki rapid partiyası. Komandaların tutduğu yerlər hər komandanın bütün oyunçularının iki növdə - klassik və sürətli şahmat üzrə topladıqları xalların ümumi sayına əsasən müəyyən ediləcək. Klassik şahmatda qalib gəlmiş oyunçuya iki xal, heç-heçə halında hərəyə bir xal, məğlub olan oyunçuya sıfır xal hesablanır. Sürətli şahmatda qalib gəlmiş oyunçuya bir xal, heç-heçəyə görə 0,5 xal, məğlub olan oyunçuya sıfır xal hesablanır. Komandanın bütün oyunçuları tərəfindən iki növ üzrə toplanmış xalların ümumi sayı bərabər olduqda yerlər komandanın bütün oyunçuları tərəfindən klassik şahmatda toplanmış xalların daha böyük sayına müəyyən edilir.

Qalib komandalar kubok və pul mükafatı alır. Mütləq yaxşı nəticələr göstərmiş (klassik şahmat+sürətli şahmat) idmançılara xüsusi mükafatlar təqdim ediləcək. Bundan əlavə, təşkilatçılar yarışda yaradıcı nailiyyətlərə görə mükafatlar təyin ediblər.

# Sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatına yekun vuruldu

Dekabrın 14-də Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatının açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti Sahib Ələkbərov, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev və respublikanın idman ictimaiyyətinin tanınmış nümayəndələri iştirak ediblər.

Dünya Güləş Birliyinin qaydalarına əsasən keçirilən yarışlar Azərbaycan Güləş Federasiyasının Hakimlər Kollegiyasının təyin etdiyi hakimlər tərəfindən idarə olunub. Sərbəst güləşçilər 57, 61, 65, 70, 74, 79, 86, 92, 97 və 125 kq-dək, yunan-Roma güləşçiləri isə 55, 60, 63, 67, 72, 77, 82, 87, 97 və 130 kq-dək çəki dərəcələrində qüvvələrini sınayıblar.

Ümumilikdə 177 yunan-Roma güləşçisinin mübarizə apardığı çempionatda Ziya Zeynalov (55 kq), Sakit Quliyev (60 kq), Taleh Məmmədov (63 kq), Kamran Məmmədov (67 kq), Ülvi Qənizadə (72 kq), Həsən Əliyev (77 kq), Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq), Türmən Eyyubov (97 kq) və Cavid Feyziyev (130 kq) fəxri kürsünün ən yüksək pillələrində qərarlaşıblar.

Yarışın son iki günündə 57, 61, 65, 70, 74, 79, 86, 92, 97 və 125 kq-dək çəki dərəcələrində sərbəst güləşçilər mübarizəyə qatılıblar. Ümumilikdə 212 sərbəst güləşçinin çıxış etdiyi çempionat gərgin və maraqlı idman mübarizəsi şəraitində keçib. Yarışların nəticəsinə əsasən, Əfqan Xaşalov (57 kq), Mircəlal Həsənzadə (61 kq), Ağahüseyn Mustafayev (65 kq), Murtuz Müslümov (70 kq), Hacımurad Ömərov (74 kq), Cəbrayıl Həsənov (79 kq), Aleksandr Qostiyev (86 kq), Şərif Şərifov (92 kq), Nurməhəmməd Hacıyev (97 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) bütün rəqiblərini üstələyərək Azərbaycan çempionu adına layiq görülüblər.

Hər iki güləş növündə çəki dərəcələri üzrə ilk üç yeri tutan idmançılara Azərbaycan Güləş Federasiyası tərəfindən müvafiq diplom, medal və pul mükafatı təqdim olunub. Çempionatın qalibləri yığma komandanın heyətinə cəlb olunacaq və il ərzində komandanın iştirak edəcəyi beynəlxalq yarışlarda millinin heyətində mübarizə aparacaqlar.



*Yunan-Roma güləşi*

**55 kq**

**FİNAL – Ziya Zeynalov (Neftçi İK)** – İbrahim Nurullayev (Gömrükçü İSM) 10:1
Bürünc medal görüşü - İzzət Süleymanov (Gəncə, Təhsil İC) – **Eldəniz Əzizli (ROİL)** 0:8
Bürünc medal görüşü – **Zülfüqar Əliyev (Sumqayıt, Təhsil İC)** – Zaur Əliyev (Lokomotiv) 10:1

**60 kq**

**FİNAL - Sakit Quliyev (Neftçi İK)** - Murad Bazarov (ROİL) 3:1
Bürünc medal görüşü - **Sədi Balabəyov (Cəngi GK)** - Təbriz Yusubzadə (Lənkəran) 4:3
Bürünc medal görüşü - **Murad Məmmədov (MOİK)** - Elşad Məmmədov (Neftçi İK) 4:1

**63 kq**

**FİNAL – Mikayıl Rəhmanov (Zenit İC)** – Taleh Məmmədov (Gömrükçü İSM) 2:6
Bürünc medal görüşü – Xəyyam Abdullayev (Neftçi İK) – **Elçin Həsənov (Lənkəran)** 2:3
Bürünc medal görüşü – **Vilayət Qəhrəmanlı (Qubadlı)** – Kazbek Fətəliyev (Qusar) 8:0

**67 kq**

**FİNAL - Kamran Məmmədov (DİN İC)** - Elman Muxtarov (MOİK) 4:1
Bürünc medal görüşü - Səbuhi Nağıyev (Neftçi İK) - **Orxan Eyvazov (MOİK)** 3:8
Bürünc medal görüşü - Məmmədəli Həsənov (Gənclik İK) - **Şaiq Eyvazov (Göyçay)** 0:9

**72 kq**

**FİNAL** – Namaz Rüstəmov (MOİK) – **Ülvi Qənizadə (Neftçi İK)** 1:5
Bürünc medal görüşü – **Nofəl Babayev (Sumqayıt, Zenit İC)** – Rövşən Tağıyev (MOİK) 8:0
Bürünc medal görüşü – Emil Abdullayev (Gəncə, Təhsil İC) – **Sənan Süleymanov (MOİK) 0:3**

**77 kq**

**FİNAL - Həsən Əliyev (MOİK, Neftçi İK)** - Hüseyn Abbasov (Sumqayıt, Zenit İC) 7:0
Bürünc medal görüşü - **Rüstəm Əliyev (DİN İC)** - Sənan Əlimirzəyev (MOİK) 2:1
Bürünc medal görüşü - İlkin Əsgərov (MOİK) - **Azər Hüseynov (Zəngilan)** 2:3

**82 kq**

**FİNAL – Rafiq Hüseynov (MOİK)** – Elvin Mürsəliyev (Neftçi İK) 1*:1
Bürünc medal görüşü – Anar Əlizadə (Gənclik İK) - **Nicat Abdullayev (MOİK)** 0:8
Bürünc medal görüşü – Rəfael Məhərrəmov (Sabirabad) – **Elton Vəzirzadə (MOİK)** 1:9

**87 kq**

**FİNAL -** Arif Niftullayev (Neftçi İK) - **İslam Abbasov (MOİK)** 3:5
Bürünc medal görüşü - Xəyal Mehtiyev (Cəngi GK) - **Soltan İsmayılov (MOİK)** 2:7
Bürünc medal görüşü - Fuad Əliyev (DİN İC) - **Orxan Qəhdiranov (DİN İC)** 6:7

**97 kq**

**FİNAL –** Saqimaqomed Omarov (Atasport) – **Türmən Eyyubov (MOİK)** 0:3
Bürünc medal görüşü – Seymur Nizami (Gəncə, Təhsil İC) – **Ramil Məmmədov (DİN İC)** 2:6
Bürünc medal görüşü – **Orxan Nuriyev (MOİK)** – Nizami Şəmilov 2:1 (Gəncə, Təhsil İC)

**130 kq**

**FİNAL -** Oyan Nəzəriani (Atasport) - **Cavid Feyziyev (Pəhləvan)** 1:1*
Bürünc medal görüşü - Lövhər Heydərov (Gənclik İK) - **Adəm Cəlilov (Zenit İC)** 1:5
Bürünc medal görüşü - **Əli Həsənov (Göyçay)** - Uğur Hacılı (DİN İC) 5:0 (tuşe)

*Sərbəst güıəş*

**57 kq**

**FİNAL -** Georgi Edişeraşvili (Atasport) - **Əfqan Xaşalov (Zenit İC)** 3:6
Bürünc medal görüşü - Kənan Ağamalıyev (Sumqayıt, Təhsil İC) - **İslam Bazarqanov (Atasport)** 3:4
Bürünc medal görüşü - **Əliabbas Rzazadə (Zenit İC)** - Arif Hüseynov (Abşeron) 9:1

**61 kq**

**FİNAL - Mircəlal Həsənzadə (Abşeron)** - Cəlal Süleymanov (FHN) 8:5
Bürünc medal görüşü - Vüsal Hüseynov (Abşeron) - **Pərviz İbrahimov (Abşeron)** 0:10
Bürünc medal görüşü - İntiqam Vəliyev (Neftçi İK) - **Elçin Vəliyev (Lokomotiv)** 1:7

**65 kq**

**FİNAL - Ağahüseyn Mustafayev (MOİK)** - Qalib Əliyev (MOİK, DİN İC) 11:0
Bürünc medal görüşü - **Ənvərbəy Dalqatov (Atasport)** - Əli Rəhimzadə (DİN İC) 9:3
Bürünc medal görüşü - **Əhmədnəbi Qvarzatilov (Atasport)** - Cahid Həsənzadə (MOİK) 12:2

**70 kq**

**FİNAL - Murtuz Müslümov (Atasport)** - Məhəmməd Müslümov (Atasport) 11:4
Bürünc medal görüşü - Rakif Məmmədov (Bərdə) - **Pənah İlyaslı (Qazax)** 0:5
Bürünc medal görüşü - Elvin Alıyev (Yevlax) - **Gitinomaqomed Hacıyev (Atasport)** 0:10

**74 kq**

**FİNAL - Hacımurad Ömərov (Atasport)** - İsmayıl Abdullayev (Atasport) 4:2
Bürünc medal görüşü - Fazil Həsənov (Gəncə, Təhsil İC) - **Coşqun Əzimov (MOİK)** 1:8
Bürünc medal görüşü - Aqil Feyruzzadə (Abşeron) - **Qurban Qurbanov (Atasport)** 3:10

**79 kq**

**FİNAL - Cəbrayıl Həsənov (Sərhədçi, Zenit İC)** - Murad Süleymanov (Gəncə, Təhsil İC) 10:0
Bürünc medal görüşü - **Orxan Abbasov (Azəri İK)** - Murad Xalıqov (9 UGİM) 7:0
Bürünc medal görüşü - **Ravil Babazadə (Lənkəran)** - Emin Nəcəfzadə (Sərhədçi, Olimpsport) 12:1

**86 kq**

**FİNAL - Aleksandr Qostiyev (Atasport)** - Hacımurad Məhəmmədsəidov (Atasport) 5:2
Bürünc medal görüşü - Vüqar Həziyev (Gömrükçü İSM) - **Elçin Məmmədov (DİN İC)** 0:10
Bürünc medal görüşü - Xaliq Əlizadə (Zenit İC) - **İbrahim Yusubov (Qazax)** 0:11

**92 kq**

**FİNAL - Şərif Şərifov (Atasport)** - Məhəmmədhacı Xatiyev (Atasport) +/-
Bürünc medal görüşü - Asxab Həmzətov (Azəri İK) - **Hacı Əlicanov (Zaqatala)** 3:4
Bürünc medal görüşü - Kənan Əliyev (Qazax) - **Cavid Sadıqov (DİN İC)** -/+

**97 kq**

**FİNAL - Nurməhəmməd Hacıyev (Atasport)** - Aslanbek Alborov (Atasport) 3:1
Bürünc medal görüşü - **Firuz Termişli (Siyəzən)** - Orxan Həsənov (Neftçi İK) +/-
Bürünc medal görüşü - Rahid Həmidli (Cəlilabad) - **Şamil Zubairov (Atasport)** 0:11

**125 kq**

**FİNAL - Cəmaləddin Məhəmmədov (Atasport)** - Adəm Cəlilov (Pəhləvan) 10:0
Bürünc medal görüşü - **Mahir Əliyev (Zenit İC)** - Hüseyn Hüseynov (Zenit İC) 6:0
Bürünc medal görüşü - **Ramil Usubov (Olimpsport)** - Şahin Firudinli (Neftçi İK) 4:2